

## Gürcü politoloq: Xalqın birliyi Azərbaycanın Vətən müharibəsində Qələbəsini təmin etdi

6



**Səs**

№ 217 (6417) 27 noyabr 2021-ci il. Qiyməti 40 qəpik

# “Birgə səyləri fəallaşdırmaq barədə razılığa gəldik...”



Заявление
Президента Азербайджанской Республики,
Премьер-министра Республики Армения и
Президента Российской Федерации

26 ноября 2021 года

Мы, Президент Азербайджанской Республики И.Г.Алиев, Премьер-министр Республики Армения Н.В.Пашинян и Президент Российской Федерации В.В.Путин, встретились 26 ноября 2021 года в г.Сочи и обсудили ход реализации Заявления от 9 ноября 2020 года о полном прекращении огня и всех военных действий в зоне нагорно-карабахского конфликта, а также Заявления от 11 января 2021 года о разблокировке всех экономических и транспортных связей в регионе.

Подтвердили приверженность дальнейшему последовательному выполнению и неукоснительному соблюдению всех положений заявлений от 9 ноября 2020 г. и 11 января 2021 г. в интересах обеспечения стабильности, безопасности и экономического развития Южного Кавказа. Договорились активизировать совместные усилия, направленные на скорейшее решение остающихся задач, вытекающих из заявлений от 9 ноября 2020 г. и 11 января 2021 г.

Отметили важный вклад Российского миротворческого контингента в стабилизацию обстановки и обеспечение безопасности в регионе.

Условились предпринимать шаги по повышению уровня стабильности и безопасности на азербайджано-армянской границе и вести дело к созданию двусторонней Комиссии по делимитации государственной границы между Азербайджанской Республикой и Республикой Армения с последующей ее демаркацией при консультативном содействии Российской Федерации по запросу сторон.

Высоко оценили деятельность учрежденной в соответствии с Заявлением от 11 января 2021 г. Трехсторонней рабочей группы под совместным председательством вице-премьеров Азербайджанской Республики, Республики Армения и Заместителя Председателя Правительства Российской Федерации по разблокированию всех экономических и транспортных связей в регионе. Подчеркнули необходимость скорейшего запуска конкретных проектов в целях раскрытия экономического потенциала региона.

Российская Федерация будет и далее оказывать все необходимое содействие в интересах нормализации отношений между Азербайджанской Республикой и Республикой Армения, формирования атмосферы доверия между азербайджанским и армянским народами, а также выстраивания добрососедских отношений в регионе.

| Президент Азербайджанской Республики | Премьер-министр Республики Армения | Президент Российской Федерации |
| --- | --- | --- |
| И.Г.Алиев | Н.В.Пашинян | В.В.Путин |

2

*Xəbər verdiyimiz kimi, bu gün Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Bəyanat imzalayıblar.*

# Soçidə vacib görüş baş tutdu!



## Lirənin ucuzlaşması nələrə səbəb olacaq? İQTİSADÇI ŞƏRH ETDİ



*“Hesab edirəm ki, Türkiyədə faktiki olaraq lirənin ucuzlaşması ilə bağlı olan proseslər Türkiyə iqtisadiyyatında böyük izlər qoyacaq. Eyni zamanda, bu, Türkiyə iqtisadiyyatının dərin sistemli zəiflikləri ilə bağlıdır".*

9

16

## Böyrək daşı xəstəliyindən 45% qoruyan UCUZ MEYVƏ



*Amerika Nefroloqlar Cəmiyyəti mütəxəssislərinin fikrinə görə, adi alma böyrəklər üçün "meqa-faydalı" məhsuldur. Alimlərin müşahidələrinə görə, tez-tez alma yeyən insanlarda böyrək daşı xəstəliyinə bu meyvəni xoşlamayan və nadir hallarda yeyən insanlarla müqayisədə 45% daha az rast gəlinir.*

## “Erməni demokratiyası”na inanmayan özbəkistanlı erməni



9

*Futbol üzrə UEFA Avropa Liqasının qrup mərhələsinin V turuna yekun vurulub. Türkiyə təmsilçilərindən "Qalatasaray" Fransanın "Marsel" klubunu qəbul edib. Görüş meydan sahiblərinin inamlı qələbəsi ilə yekunlaşıb - 4:2.*



## “Qalatasaray”dan fransızlara futbol dərsi!

16

## Uşaqlara müavinət verilir - Müavinəti kimlər ala bilərlər?



## “Ermənistan rəhbərliyi cəmiyyətin qəzəbini boğmaq üçün Moskvanın xəyanətindən danışır”



13

*Rusiya hökuməti yanında Maliyyə Universitetinin Sosial Elmlər və Kütləvi Kommunikasiyalar fakültəsinin dekanı Aleksandr Şatilov ”Caliber” analitik mərkəzinə müsahibəsində maraqlı məqamlara toxunub Müsahibəni təqdim edirik.*



## Sosial şəbəkədə ikili, ədalətsiz, qərəzli yanaşma

8

*İnkişaf, elmi-texniki tərəqqi, innovasiyalar, yeni texnologiyalar insan cəmiyyəti üçün yeni imkanlar yaradır və perspektivlər vəd edir.*



## Bütün bunlar Fransanın ikiüzlü siyasətindən başqa birşey deyil

7

“Fransa uzun illər erməni lobbisinin əsas təşkilatlandığı dövlətlərdən biri olub və bu tendensiya bu gün də davam etməkdədir...

# "Bizim strateji tərəfdaşlığımız çox uğurla inkişaf edir"



## Soçidə Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş olub

***Noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş olub. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevi salamlayan Prezident Vladimir Putin bildirib ki, Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biridir. Əlbəttə, humanitar əlaqələr bu fonda davam edir:***

- Hər vaxtınız xeyir, hörmətli İlham Heydər oğlu. Sağ olun ki, gəlməyə razılıq verdiniz. Çoxlu suallar yığılıb qalıb. Əlbəttə, Dağlıq Qarabağ probleminin nizamlanması ilə əlaqədar bizim üçtərəfli görüşümüz diqqət mərkəzində olacaq. Mən indicə öz həmkarlarımla - Sizin yaxşı tanıdığınız və iqtisadiyyat problemləri, nəqliyyat dəhlizlərinin açılması məsələləri ilə məşğul olan Rusiya hökumətinin Baş nazirinin müavini, müdafiə naziri, məlum olduğu kimi nizamlanma işinə əhəmiyyətli töhfə verən Sərhəd Xidmətinin tabe olduğu Federal Təhlükəsizlik Xidmətinin direktoru ilə söhbət edirdim.

Ümumiyyətlə, orada suallar çoxdur, lakin hər halda bizim ikitərəfli görüşümüzü ondan başlamaq istərdim ki, gələn il ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmasının 30 illiyi tamam olur. Şübhəsiz, bu elə bir hadisədir ki, onu müvafiq şəkildə qeyd etməli olacağıq. Bununla əlaqədar demək istərdim ki, bizim strateji tərəfdaşlığımız çox uğurla inkişaf edir. Bunu demək kifayətdir ki, pandemiya ilə bağlı bütün məsələlərə və bununla əlaqədar iqtisadiyyatda məhdudiyyətlərə baxmayaraq, hər halda bu ilin 9 ayı ərzində bizdə əmtəə dövriyyəsinin həcmi 11 faiz artıb. Bu, yaxşı göstəricidir. Rusiyanın 900 müəssisəsi Azərbaycanda işləyir. Azərbaycan iqtisadiyyatına Rusiya tərəfindən 4,5 milyard dollar birbaşa investisiya qoyulub. Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biridir. Əlbəttə, humanitar əlaqələr bu fonda davam edir. Mən bizim görüşlərimizdə həmişə, ilk növbədə, bu barədə danışıram. Rus dilinin inkişafına, dəstəklənməsinə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür etmək istəyirəm. Sizdə 304, hətta mən bilən daha çox - 340 məktəbdə rus dili tədris edilir. Azərbaycan məktəblilərinin 34 faizi bu və ya digər şəkildə rus dilində oxuyur və bu dili öyrənirlər. Bu da yaxşı göstəricidir, Azərbaycan rəhbərliyinin, Azərbaycan xalqının yaxın və çoxtərəfli əlaqələr saxlamaq cəhdinə dəlalət edir. Bu əlaqələr həqiqətən çoxtərəfli xarakter daşıyır. Humanitar sahədə münasibətlər də, gənclərin əlaqələri də inkişaf edir. Bizdə bu cür ümumbəşəri səviyyədə dəstəklənən tədbirlər çoxdur. Bu, gələcəkdə münasibətlərimizin inkişafı üçün yaxşı şərait yaradır.

Dağlıq Qarabağ məsələsinin nizamlanmasına gəldikdə isə, bu barədə üçtərəfli formatda danışarıq. Bir azdan Ermənistanın baş naziri bizə qoşulacaq və biz bu diskussiyanı davam etdirəcəyik. Lakin mənə belə gəlir ki, burada bizim sülhməramlılar da müsbət rol oynayırlar. Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə mərkəzi fəal iş aparır. Təəssüf ki, problemlər, insidentlər var. Təəssüf ki, hələ də insan tələfatı olur. Biz də bundan ötrü toplaşmışıq ki, baxaq, nəinki buna oxşar heç bir hadisə baş verməməsi, əksinə, vəziyyətin sakitləşməsi və regionda insanların rahat yaşamasına, ölkələrin inkişaf etməsinə imkan verəcək şərait yaradılması üçün nə edilib və hamı nə etməlidir.

Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz.

X X X

Prezident İlham Əliyev:

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç.

İlk növbədə, dəvətə görə sağ olun. Yenidən görüşməyimizə şadam. Bu il ərzində biz çox fəal dialoq aparmışıq - həm görüşmüşük, həm də tez-tez telefonla danışmışıq. İkitərəfli münasibətlərimizin inkişaf dinamikası bizi çox sevindirir. Lakin mən, əvvəlcə, Kemerova vilayətində kömür şaxtasında baş vermiş facie ilə əlaqədar Sizə şəxsən başsağlığı vermək istərdim. Təəssüf ki, xeyli insan həlak olub. Dünən Sizə teleqram göndərmişəm. Bu gün Azərbaycan xalqı adından bir daha Sizə, bütün Rusiya xalqına başsağlığı vermək istəyirəm.

Biz ikitərəfli formatda çox məsələləri həll etmişik və bu gün münasibətlərimizi strateji tərəfdaşların münasibətləri kimi səciyyələndiririk. Bu, sadəcə, söz birləşməsi deyil, həqiqətən belədir və bütün istiqamətlər üzrə qarşılıqlı münasibətlərimizin səviyyəsini daha da yüksəltmək əzmindəyik. Sizin qeyd etdiyiniz kimi, əmtəə dövriyyəsi artır. İqtisadi sahədə əməkdaşlığa, o cümlədən biznes dairələri arasında qarşılıqlı maraq çox güclüdür. Əlbəttə, münasibətlərimizin çoxlu sahələri ehtiva etməsi bizi çox sevindirir.

Hazırda biz iqtisadiyyatın, nəqliyyatın əksər sahələrinə, humanitar əməkdaşlığa aid 7 yol xəritəsini reallaşdırırıq.

Azərbaycanda rus dilinin, o cümlədən təhsil prosesləri vasitəsilə populyarlaşdırılması və qorunub saxlanması üzrə bizim fəaliyyətimizi qiymətləndirdiyinizə görə sağ olun. Sizə həm də ona görə təşəkkür etmək istərdim ki, Azərbaycan tələbələrinin Rusiyada təhsil almaları üçün gözəl şərait yaradılıb. Bu səfərdən əvvəl son məlumatları gözdən keçirdim, 15 mindən çox azərbaycanlı, Azərbaycan vətəndaşı Rusiyanın ali məktəblərində təhsil alır. Əslində, bu, bütöv bir ali məktəb deməkdir. Burada çox yaxşı təhsil verilir və bu, avtomatik olaraq ölkələrimiz arasında körpü olur. Bizim münasibətlərimizin inkişafı işində bu həftə çox əlamətdar olub. Mən bu həftə Rusiya Federasiyası hökumətinin sədrinin müavinini qəbul etmişəm, dünən axşam Rusiya Elmlər Akademiyasının prezidentini qəbul etdim. Sizin humanitar əməkdaşlıq üzrə xüsusi nümayəndəniz Azərbaycanın və Ermənistanın intellektualları, mədəniyyət xadimləri arasında Rusiya tərəfin fəal iştirakı ilə əlaqələrin nizamlanması kimi çox mühüm bir missiya ilə bütün həftə ərzində Bakıda olub. Bu günlərdə, bu həftə Rusiyanın ixrac mərkəzi və "Roseksimbank"ın böyük biznes konfransı keçirilib. Bu konfransda Rusiyanın 30-dan çox şirkəti iştirak edirdi. Yəni, bu, bir həftə bizim qarşılıqlı fəaliyyətimizin istiqamətlərinin yalnız bir hissəsini səciyyələndirmək üçün kifayət qədər əlamətdardır.

Əlbəttə, bu gün biz Ermənistan-Azərbaycan problematikası barədə ətraflı söhbət edəcəyik. Qeyd etməliyəm ki, keçən il noyabrın 10-dan etibarən Rusiya sülhməramlı qüvvələrinin fəaliyyətə başlaması ilə əlaqədar o vaxtdan bəri bir il ərzində Rusiya sülhməramlılarının məsuliyyəti zonasında ciddi insidentlər olmayıb. Silahlı toqquşmalar olmayıb, hər hansı ciddi hadisələr olmayıb, sistemli böhran xarakteri daşımayan müəyyən təsadüfi insidentlər olub. Azərbaycan və Ermənistan sərhədində silahlı toqquşmalar olub, lakin bu, Rusiya sülhməramlılarının məsuliyyət zonası deyil. Bununla belə, əlbəttə, bu, bizi bütün bunlara çox diqqətlə yanaşmağa, risklərə necə nəzarət etmək, onları necə minimallaşdırmağın mümkün olması barədə, o cümlədən üçtərəfli formatda söhbət aparmağa və Ermənistan-Azərbaycan münasibətlərinin hərtərəfli nizamlanması üzərində işləməyə vadar edir. Biz bu məsələdə şəxsən Sizin rolunuzu, Rusiya Federasiya hökumətinin yüksəkvəzifəli nümayəndələrinin rolunu və əlbəttə, Qarabağda sülhün saxlanması üçün Rusiya sülhməramlılarının rolunu çox yüksək qiymətləndiririk və ümid edirik ki, gələn il bu iş davam etdiriləcək və yenə yaxşı nəticələr alınacaq.



Dəvət üçün bir daha çox sağ olun, təkcə Rusiyanın deyil, bütün dünyanın incisi olan bu diyarın gözəl təbiətinə heyran olduğumu bir daha bildirmək istərdim.

Vladimir Putin: Çox sağ olun.

*Noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin bildirib ki, Ermənistan və Azərbaycan ilə münasibətlərin xüsusi xarakterini nəzərə alsaq, bu, Rusiya üçün böyük əhəmiyyət kəsb edir:*

# Soçidə vacib görüş baş tutdu!

## Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib



-Hörmətli həmkarlar, dostlar.

İlk növbədə, sizə təşəkkür etmək istərdim ki, mənim dəvətimə cavab verməyi və atəşkəs haqqında bəyanat qəbul ediləndən sonra bir il ərzində görülmüş işə müəyyən yekun vurmaq üçün Rusiyaya gəlməyi mümkün hesab etmisiniz. Sonra biz artıq cari ilin yanvarında atəşkəs və normal həyatın bərpa edilməsi haqqında razılaşmalarımızı təsdiq etdik. Bu müddətdə həqiqətən az iş görülməyib.

Əfsuslar olsun ki, məsələlərin hamısı həle də nizamlanmayıb. Sərhəddə baş verən insidentlərdən, faciəli insidentlərdən, hər iki tərəfdən insanların həlak olmasından və yaralanmasından xəbərim var. Bütün bunlar bizim tərəfimizdən xüsusi diqqət tələb edir. Əslində, biz sizinlə bu gün onun üçün toplaşmışıq ki, gələcəkdə buna bənzər insidentlər baş verməsin.

Lakin bütövlükdə il ərzində az iş görülməyib. Birincisi, heç bir irimiqyaslı döyüş əməliyyatları baş vermir, bu da özlüyündə çox yaxşı haldır. Bu müddət ərzində və bizim tərəfin köməyi ilə qaçqınların qaytarılması ilə bağlı böyük iş aparılıb, 53 min insan daimi yaşayış yerlərinə qayıdıb. Yaxşı monitorinq qrupu yaradılıb, bizim kontingent fəaliyyət göstərir, hər iki tərəfin dəyərləndirməsindən belə başa düşürəm ki, layiqincə işləyir, insanların həyatı üçün təhlükəsiz şərait təmin edir. Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə mərkəzi fəaliyyət göstərir. Ən əsası odur ki, gələcəkdə normal dinc həyat üçün şərait yaradılır. Bu, çox vacibdir.

Ermənistan, Azərbaycan və Rusiya hökumətlərinin Baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli komissiya yaradılıb. Mənim həmkarlarım işin necə getməsi barədə məruzə etdilər. Asan deyil. Lakin buna baxmayaraq, bu iş irəliləmə vəziyyətindədir və elə düşünməyə əsas var ki, yaxın vaxtlarda biz nəqliyyat kommunikasiyalarının işə salınması üzrə müvafiq qrupun işini nəinki təsdiqləyəcək, həm də hamı üçün uyğun zəruri tədbirlər görəcəyik.

Mənə elə gəlir ki, bütün səylərimizin məqsədi bundan ibarətdir, yəni regionun dirçəldilməsi üçün şəraitin yaradılması, insanların orada özlərini təhlükəsiz hiss etmələri və təsərrüfat fəaliyyəti ilə normal məşğul olmaları, iqtisadiyyatı inkişaf etdirə bilmələri üçün bütün bunlar, sözsüz ki, hər iki ölkənin vətəndaşlarının həyat səviyyəsində ən əlverişli şəkildə əksini tapmalıdır.

Ermənistan və Azərbaycan ilə münasibətlərin xüsusi xarakterini nəzərə alsaq, bu, Rusiya üçün böyük əhəmiyyət kəsb edir. Biz yüzilliklər boyu vahid dövlətin tərkibində olmuşuq, bizim çox dərin tarixi əlaqələrimiz var. Bu əlaqələrin kəsilməsini istəməzdik. Əksinə, biz onları bərpa etməyə və gələcəkdə də dəstəkləməyə səy göstərməliyik.

Əvvəldə mənim demək istədiklərim bunlardır.

Biz indi İlham Heydər oğlu ilə birgə işlərin gedişində razılaşdırmalı olacağımız məsələləri qabaqcadan müzakirə etdik. Ermənistan tərəfi ilə biz bunu qabaqcadan, vaxtında etmişik, Ermənistanın baş naziri ilə son vaxtlar dəfələrlə bu barədə danışmışıq. İndi, görüş yerinə gələndə də bu barədə fikirlərimizi bölüşdük. Bizim üçtərəfli görüşümüzdən sonra Nikol Vovayeviç qalacaq, biz hələ onunla ikitərəfli görüş də keçirəcəyik.

Görüşümüzün əvvəlində mənim demək istədiklərim bunlardır. Əgər görüşümüzün əvvəlində həmkarlarımın deməyə sözü və istəyi varsa, buyursunlar.

Prezident İlham Əliyev: Dəvət üçün çox sağ olun, Vladimir Vladimiroviç. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin nizamlanması məsələsində Sizin şəxsi iştirakınızı və əlbəttə, keçən il Bəyanatın mətninin razılaşdırılması işində fəal iştirakınızı Azərbaycanda yüksək qiymətləndiririk. Siz qeyd etdiyiniz kimi, biz ilin əvvəlində bu formatda görüşmüşdük, indi artıq ilin sonunda görüşürük. Yekun vurmaq olar. Əlbəttə, Rusiya sülhməramlı qüvvələrinin məsuliyyəti zonasında vəziyyət bütövlükdə sabitdir. Ciddi insidentlər olmayıb. Qəsdən törədilmiş təxribatlar olmayıb. Müşahidə olunan ayrı-ayrı hallar sistemli xarakter daşımırdı. Buna görə də Rusiya sülhməramlı kontingentinin yaxşı xidmətinə görə, uzun illər boyu dondurulmuş münaqişə, keçən il tammiqyaslı müharibə vəziyyətində olan regionda təhlükəsizliyi təmin etmələrinə görə təşəkkürümü bildirmək istərdim.

Bu il ərzində Azərbaycan müharibənin nəticələrinin aradan qaldırılması və kommunikasiyaların bərpası işində maksimum konstruktivlik nümayiş etdirib. Hesab edirəm ki, bu, hələlik yerinə yetirilməmiş mühüm məsələlərdən biridir. Ona görə ki, keçən il noyabr ayında qəbul edilmiş və imzalanmış üçtərəfli Bəyanatın praktiki olaraq bütün bəndləri yerinə yetirilib. Buna görə düşünürəm ki, - bu gün biz Sizinlə təbii ki, bu barədə əvvəlcə söhbət etmişik, - bu mövzu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sərhədlərin müəyyən edilməsi mövzusu müzakirə ediləcək. Biz, bu məsələdə Rusiya tərəfinin dəstəyini, o cümlədən məsləhət dəstəyini də çox yüksək qiymətləndiririk.

Ermənistan ilə Azərbaycan arasında sərhəd delimitasiya edilməyib. Buna görə biz dəfələrlə açıq bildirmişik ki, delimitasiya prosesinə təxirə salınmadan başlamağa hazırıq. Üstəlik, biz Ermənistan tərəfinə açıq təklif etmişik ki, qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə qonşular kimi yaşamağı, yenidən qonşular kimi yaşamağı təşviq etmək üçün sülh müqaviləsi üzərində işə başlayaq.

Əlbəttə, bir sıra başqa məsələlər də qarşıya çıxır, lakin onlar operativ şəkildə, o cümlədən Rusiya tərəfinin, şəxsən Sizin, Xarici İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin, hökumətin və digər strukturların fəal iştirakı ilə həll edilir. Dəvət üçün, yenidən belə bir görüş keçirmək imkanı üçün bir daha təşəkkür edirəm.

Ermənistanın baş naziri Nikol Paşinyan: Vladimir Vladimiroviç, icazə verin, əvvəlcə dəvətə, bu görüşün təşkilinə görə Sizə təşəkkür edim. Bugünkü görüşün gündəliyinə keçməzdən əvvəl icazə verin, Kuzbasda çoxsaylı insanın həlak olması ilə nəticələnmiş partlayışla əlaqədar öz adımdan, erməni xalqı adından Sizə başsağlığı verim. Həlak olmuş şaxtaçıların bütün doğmalarına və yaxınlarına başsağlığı vermək istəyirəm.

Prezident Vladimir Putin: Sağ olun.

Nikol Paşinyan: Keçən il müharibənin dayandırılmasında Sizin rolunuz və Rusiya Federasiyasının rolu aşkardır. Noyabrın 9-dan sonra Dağlıq Qarabağda, Laçın dəhlizi boyunca Rusiya sülhməramlı qüvvələri yerləşdirilib. Aşkardır ki, Dağlıq Qarabağda və regionda vəziyyətin sabitləşməsində Rusiya sülhməramlıları, Rusiya Federasiyası mühüm rol oynayır. Lakin təəssüflə vurğulamaq istəyirəm ki, vəziyyət istənilən qədər sabit deyil. Keçən il noyabrın 9-dan sonra hər iki tərəfdən onlarca insan həlak olub və hadisələr Dağlıq Qarabağda da baş verir. Bu il mayın 12-dən bəri Ermənistan-Azərbaycan sərhədində faktiki olaraq böhranlı vəziyyətdir və bizim rəyimiz belədir ki, Azərbaycan qoşunları Ermənistanın suveren ərazisinə soxulub. Əlbəttə, Ermənistan və Azərbaycan arasında sərhədlər delimitasiya və demarkasiya edilməyib, lakin dövlət sərhədi mövcuddur və bu, Ermənistan Respublikasının suveren ərazisidir.

Mən Azərbaycan Prezidentinin bu fikri ilə razılaşmıram ki, kommunikasiyaların bərpasından başqa Bəyanatın faktiki olaraq bütün bəndləri yerinə yetirilib. Bilirsiniz ki, biz bu məsələni Sizinlə dəfələrlə, həm əyani şəkildə, həm də telefonla müzakirə etmişik ki, girovlar və digər saxlanılan şəxslər, hərbi əsirlər problemi də var. Bu, çox mühüm humanitar məsələdir. Lakin demək istəyirəm ki, mənim fikrimcə bu gün biz təkcə problemləri səsləndirmək üçün deyil, söhbət etmək, məsələləri müzakirə etmək və mövcud problemləri həll etmək üçün toplaşmışıq. Mən də dəfələrlə elan etmişəm ki, Ermənistan sərhədlərin demarkasiyası və delimitasiyası prosesinə başlamağa hazırdır. Bütün nəqliyyat və iqtisadi kommunikasiyaların açılması, blokadadan çıxarılması mövzusu da bizim üçün çox vacibdir. Biz bu məsələlərin həll edilməsində həqiqətən maraqlıyıq. Ümid edirəm ki, bu gün biz bütün bu məsələləri müzakirə edəcəyik. Mən gördüm, Siz Azərbaycan Prezidenti ilə ikitərəfli görüş zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması problemini də xatırlatdınız. Azərbaycan Prezidenti də indicə Ermənistan ilə Azərbaycan arasında sülh danışıqları məsələsini xatırlatdı. Əlbəttə, biz də bunda maraqlıyıq və hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində aparılmalıdır. Düşünürəm ki, çox məsələləri üçtərəfli formatda, ikitərəfli formatda müzakirə və həll etmək lazımdır və mümkündür.

Deməliyəm ki, Azərbaycanın və Ermənistanın rəsmi şəxsləri arasında birbaşa əlaqələr də nəzərdə tutulur. Mənim fikrimcə, o qədər də yaxşı və pozitiv olmayan nüanslar fonunda bu müsbət nüansları da vurğulamaq lazımdır. Ən başlıcası, təkrar etmək istəyirəm, üzr istəyirəm, düşünürəm ki, bugünkü görüşün əsas mənası hansısa problemlərin mövcud olmasını və ya mövcud olmamasını, sadəcə, səsləndirmək deyil. Əsas odur ki, bu gün biz regionda, Cənubi Qafqazda vəziyyətin sabitləşməsinə dair konkret və ya mümkün qədər konkret qərarlara gələ bilək. Buna görə bizim məsuliyyətimiz, sülh, sabitlik və insanların təhlükəsizliyidir. Sağ olun.

Prezident Vladimir Putin: Mənə belə gəlir ki, sizin indicə dedikləriniz - həm Azərbaycan Prezidenti tərəfindən, həm də Ermənistanın baş naziri tərəfindən deyilənlər, əslində, çox vacibdir. Vəziyyətin normallaşdırılmasının inkişafında, vəziyyətin müsbət həllinin inkişafında hər iki tərəfin marağı var. Siz indicə kommunikasiyalar barədə, kommunikasiyaların açılması barədə xatırlatdınız. İlham Heydər oğlu da bu barədə danışıb. Bu məsələdə hamı maraqlıdır. O cümlədən Rusiya da. Mən onu nəzərdə tuturam ki, bütün yaxın ölkələr, - biz qonşuyuq, biz böyük əmtəə dövriyyəsinə malikik, - hamımız bu məsələdə maraqlıyıq. Birincisi də, ikincisi də, biz yenə də o barədə razılığa gəlirik ki, yaxın vaxtlarda sərhədlərin demarkasiyası və delimitasiyası üzrə işləri, əvvəlcə delimitasiya, daha sonra demarkasiya işlərini sahmana salaq. Əlbəttə, biz bu barədə də bu gün danışacağıq. Baxmayaraq ki, məsələnin mürəkkəb olması aydındır. O, hələ Sovet İttifaqından qalıb. Orada dəqiq sərhədlər olmayıb. Lakin bütün bunlar barədə danışmaq imkanı var. Həmkarlarımla razıyam ki, nə qədər çox əlaqə, o cümlədən birbaşa əlaqələr olarsa, daha yaxşıdır. Birbaşa ikitərəfli əlaqələr ümumiyyətlə prioritetdir. Mən bilirəm ki, yaxın vaxtlarda sizin Brüsseldə görüşünüz nəzərdə tutulub. Siz oraya getməyə və orada görüş keçirməyə razılıq vermisiniz. Biz bunu da alqışlayırıq. Nə qədər birbaşa ünsiyyət olarsa, bir o qədər yaxşıdır. Mən bu yaxınlarda bu barədə Avropa İttifaqı Şurasının Prezidenti cənab Mişellə də danışmışam. O, sizi gözləyir. Ümidvaram ki, biz irəliyə doğru hansısa addım atacağıq. Bundan sonrakı addımları digər platformalarda da atmaq mümkün olacaq. Bir daha təkrar edirəm, tərəfdaşlarımızın bu dialoqa cəlb edilməsini biz yalnız alqışlayırıq. Əsas odur ki, bu dialoq faydalı olsun. Çox sağ olun.

# Soçi - görüşdən əvvəl və sonra: proseslər nəyi diktə edir və edəcək?

***44** günlük müharibədə demək olar ki, bütün iqtisadi, hərbi resurslarını itirən Paşinyanın siyasi iradəsi sındırılıb və artıq yaşanan reallıqlarla barışmaq məcburiyyətindədir.*



Rusiya Prezidenti Vladimir Putinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyanın Soçidəki üçtərəfli görüşləri faktoru çoxsaylı proqnoz və ehtimalları yenidən gündəmə gətirdi. Xatırladaq ki, bu, 10 noyabr bəyanatından sonra ikinci görüşdür, sonuncu görüş isə bu ilin 11 yanvarında Moskvada keçirilmişdi.

### Brüssel görüşünün əsası Soçidə qoyulur - Rusiya təşəbbüskarlıq rolları ilə zəifləyən mövqeyini möhkəmləndirir

Artıq o da bəllidir ki, Soçi görüşü regional sabitliyin və inkişafın təməlini qoya biləcək nəticələrə də səbəb ola bilər. Belə ki, dekabrın 15-də keçiriləcək Brüssel görüşündə qəbul edilməsi gözlənilən bir sıra qərarların əsasının, məhz Soçidə qoyulması həm də şərtə çevrilmişdi.

Məsələ ondadır ki, Rusiya son zamanlar bir sıra səbəblərə görə özünün regiondakı çəkisinin azaldığını hiss etməyə başlamışdı və bu görüşdə mümkün qədər 10 noyabr 2020-ci ildə qəbul olunmuş üçtərəfli bəyanatda əks edilən şərtlərin realizəsinə çalışdı və bundan sonrakı proseslərdə də biz bunu müşahidə edəcəyik.

### Kreml regionun inkişafı və tərəqqisi istiqamətində Bakının roluna davamlı dəstək göstərməyə hazırdır

Rusiya liderinin üçtərəfli görüşdən əvvəl Azərbaycan Prezidenti İlham Əliyevlə ikitərəfli görüş keçirməsi və həmin görüş əsnasında iqtisadi, siyasi və s. faktorlarda ölkələrimiz arasında artan etimadın möhkəm olmasını vurğulaması, həm də belə deməyə zəmin yaradır ki, Kreml regionun inkişafı və tərəqqisi istiqamətində Bakının roluna davamlı dəstək göstərməyə hazırdır.

O cümlədən, 44 günlük müharibədən sonra işğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətində də Moskvanın rol almaq imkanlarının genişliyi, çoxsaylı Rusiya şirkətlərinin Azərbaycandakı fəaliyyətləri ilə əlaqələndirilir. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev də Vladimir Putinlə görüşündə xüsusilə vurğuladı, habelə ölkəmizin Rusiya ilə çoxəsrlik bağlantılara malik olduğu hər iki lider tərəfindən qeyd edildi.

Yeri gəlmişkən, üçtərəfli görüşdən əvvəl də görüş əsnasında da qalib Azərbaycan liderinə göstərilən dərin ehtiram və diqqət də gözlərdən yayınmadı. Halbuki, Paşinyanın vəziyyəti açıq-aşkar göz önündə idi...

### Ermənistanın baş naziri Nikol Paşinyanın bu görüşdə "tora salınması" onun davranışlarından və çıxışlarından da bəlli idi

Lakin əsas məqamlardan biri də budur ki, Soçi görüşündə dəhliz mübahisəsinə son vermək üçün Ermənistanın üzərinə qəti və kəskin öhdəliklər qoyuldu və Ermənistanın baş naziri Nikol Paşinyanın bu görüşdə necə deyərlər, "tora salınması" onun davranışlarından və çıxışlarından da bəlli idi. O, yaxş bilir və dərk edir ki, üzərinə düşən şərtləri icra etməsindən başqa çarəsi yoxdur. Əks halda, sülhməcburetmə amili öz danılmazlığını qoruyub-saxlamaqdadır. Əbəs deyil ki, Prezident İlham Əliyev mətbuat üçün açıq olan üçtərəfli görüş hissəsində Rusiya sülhməramlılarının fəaliyyətlərinə müsbət qiymət versə də, Ermənistan-Azərbaycan sərhədlərində məhz erməni tərəfinin addımları nəticəsində silahlı insidentlərin yaşandığını xatırlatdı.

### Nələr razılaşdırıldı?

Onu da qeyd etmək olar ki, nəqiyyat və iqtisadi kommunikasiyaların, (yəni Zəngəzur dəhlizinin) açılmasının vacibliyi həm Rusiya, həm də Azərbaycan dövlət başçıları tərəfindən bildirildi. Lakin qarşıda sərhədlərin delimitasiyası və demarkasiyası kimi proses də mövcuddur ki, əgər Ermənistan rəhbərliyi həmin prosesə süni, yaxud qəsdən əngəllər yaratmazsa, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın realizəsi daha da sürətlənə bilər.

Bu baxımdan, üçtərəfli görüşdən sonra birgə mətbuat konfransında çıxış edən Vladimir Putinin ilkin razılaşmalar barədə açıqlama verməsi diqqət çəkir. "Görüşdə ilin sonuna kimi Ermənistanla Azərbaycan arasında sərhədin demarkasiyası və delimitasiyası mexanizmlərinin yaradılması razılaşdırılıb... Tərəflər nəqliyyat dəhlizlərinin qarşısındakı əngəllərin aradan qaldırılması barədə razlığa gəliblər"

Qeyd edək ki, Rusiyanın dövlət başçısı onu da bildirib ki, Soçi görüşünün sonunda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti arasında üçtərəfli yekun bəyanat imzalanıb.

Bütün bunlardan nəticə çıxarmaq olar ki, bir ildən çoxdur ki, üçtərəfli bəyanatdakı bəndləri bu və ya digər şəkillərdə icra etməkdən yayınan Ermənistanın Soçi görüşündən sonra hər hansı bir müqavimət göstərmək şansı da artıq sıfıra bərabərdir. Nikol Paşinyan öz təbirincə, ya da öz dar düşüncəsinə görə lüzumsuz inadkarlıq sərgiləyib Azərbaycan Prezidentinin və Rusiyanın dövlət başçısının hər hansı bəyanatları, ifadələri ilə "razılaşmamaq" görüntüsünü ala bilər. Təbii ki, o, bunu İrəvanda küçələrə çıxan daxili publikası üçün edir ki, hakimiyyətini saxlaya bilsin.

Amma Paşinyan onu da bilməli idi ki, onun razılaşmadığı tələblərin hər biri, ayrı-ayrılıqda və əslində, bir il öncə özünün atdığı imzası üçtərəfli razılaşmada qalmaqdadır.

Eləcə də Soçi görüşünün nəticələri ilə bağlı imzalanan yekun bəyanat da rəsmi sənəd kimi öz mövcudluğunu qüvvəyə mindirmiş oldu. Artıq Ermənistan üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyə borcludur. Çünki 44 günlük müharibədə demək olar ki, bütün iqtisadi, hərbi resurslarını itirən Paşinyanın siyasi iradəsi sındırılıb və artıq yaşanan reallıqlarla barışmaq məcburiyyətindədir.

Daha bir mühüm məqam budur ki, artıq növbəti həftədə Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin görüşlərinin keçirilməsi barədə ilkin razılıq da əldə olunub.

Beləliklə, Cənubi Qafqazın yeni istiqamətə - inkişafa doğru gedəcəyini ümid edə bilərik. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevin mətbuat üçün keçirilən brifinqdəki bəyanatı da xüsusi vurğulanmalıdır: "Soçidə keçirilən üçtərəfli görüşdə qəbul edilən qərarlar Cənubi Qafqazda daha təhlükəsiz şərait yaradacaq".

**Rövşən RƏSULOV**

## Yaponiya saytı: Azərbaycan "Hökumətə etibar edən insanların üstünlük təşkil etdiyi ölkələr" sorğusunda üçüncü yeri tutub

***Y**aponiya "news.yahoo.co.jp" saytı Azərbaycanın "Hökumətə etibar edən insanların üstünlük təşkil etdiyi ölkələr" sorğusunda üçüncü yeri tutmasından yazıb.*

AZƏRTAC xəbər verir ki, saytın "Azərbaycan "Hökumətə etibar edən insanların üstünlük təşkil etdiyi ölkələr" sorğusunda üçüncü yeri tutub" adlı məqaləsində "World Values Survey" beynəlxalq layihəsi tərəfindən keçirilən sorğunun nəticələrindən bəhs edilir. Bildirilir ki, koronavirus pandemiyasının yayıldığı müasir dünyada beynəlxalq vəziyyət ciddi dəyişikliklər yaşayır. Qeyd edilir ki, belə olan halda tanınmış beynəlxalq layihə dünya ölkələrində insanlar hökumətə nə qədər etibar edir sualının cavabını araşdırıb.

Sorğu zamanı respondentlərdən "Hökumətə etibar edirsinizmi?" sualına cavab vermələri xahiş edilib. Əvvəlcədən hazırlanan variantlar arasında isə "Çox inanıram", "Bir az inanıram", "Həddindən artıq inanıram" cavabları yer alıb. Eyni zamanda, cavablar sırasında "İnanmıram", "Heç inanmıram" və "Bilmirəm" cavabları da göstərilib.

Qeyd edilir ki, Qafqazda, Xəzər dənizinin sahillərində yerləşən Azərbaycanda sakinlərin 89,6 faizi hökumətə inandığını bildirib. Həmçinin 1991-ci ildə keçmiş Sovet İttifaqından ayrılaraq müstəqillik qazanmış respublikada iki siyasətçi nəslinin dəyişdiyi qeyd edilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xəttinin bu gün dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb.




Məqalədə hökumətə inam bəsləyən insanların 92,9 faiz təşkil etdiyi Vyetnamın ikinci, əhalinin 94,6 faizinin etibar etdiyi Çinin isə birinci yeri tutduğu qeyd edilir. Həmçinin yazıda Yaponiyanın bu sorğunun nəticələrinə görə 36-cı yerdə qərarlaşdığı da bildirilir.

# Nazirlər Kabinetinin iclası keçirilib



Noyabrın 26-da Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın iclası keçirilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) mətbuat xidmətindən SİA-ya bildirilib ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın sədri Əli Əhmədovun sədrliyi ilə keçirilən iclasda aidiyyəti qurumların nümayəndələri də iştirak ediblər.

İclasda Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın icra vəziyyəti, uşaq hüquqlarının müdafiəsi sahəsində mütəxəssislərin bilik və bacarıqlarının artırılması, yerli komissiyaların fəaliyyətinin effektivliyinin təmin olunması, uşaq hüquqlarının təşviqi sahəsində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, komissiyanın qarşısında duran məsələlər və 2022-ci il üçün nəzərdə tutulmuş tədbirlər planı müzakirə edilib.

# Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının növbəti iclası keçirilib



Noyabr ayının 26-da Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının fəaliyyət istiqamətinə dair növbəti iclası keçirilib. İclasda Təftiş Komissiyasının fəaliyyət prinsipləri, qaydaları və digər əsas məsələlər öz əksini tapıb. Müzakirələr zamanı Komissiya üzvləri çıxış edərək rəy və təkliflərini bildiriblər.



# Dövlətimizə inam, etimad xalq və iqtidar birliyini gücləndirib

***Müasir dövrümüzdə ölkəmizdə bütün sahələrdə əldə olunan nailiyyətlərin kökündə düşünülmüş siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasında nüfuzu, çəkisi olan dövlətə çevirib. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir, onun əbədiliyi təmin edilir.***

Azərbaycan Prezidenti İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsindən ötən dövrdə dövlətimiz uğurlu inkişaf tarixini yaşayıb. Son 18 il ərzində dövlət başçısı Ulu Öndər Heydər Əliyevin demokratik-hüquqi və dünyəvi dövlət quruculuğuna yönəldilmiş müstəqillik siyasətini qətiyyətlə həyata keçirib. Reallaşan kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Regionlarda yeni iş yerlərinin açılması və qeyri-neft sektorunun inkişafı, strateji əhəmiyyətli kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün bütün imkanlardan istifadə edilməsi əhalinin məşğulluğunu daha da artırmış və bu insanlarda məmnunluq yaratmışdır. Əlbəttə ki, məşğulluğun təmin olunması istiqamətində kənd təsərrüfatı üçün vacib olan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər görülüb və bu davam etməkdədir.

Qısa bir zamanda ölkəmiz böyük inkişaf yolu keçib. Yeni tikilən, eləcə də təmir və bərpa olunan məktəblər, xəstəxanalar, olimpiya mərkəzləri və s. Azərbaycanın dinamik inkişafının göstəriciləri sırasındadır. Ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilib, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılıb. Sahibkarlara güzəştli kreditlərin verilməsi, fermerlərə subsidiyaların ayrılması ölkədə sahibkarlığın inkişafına münbit şəraitin olduğunu özündə ehtiva edir. Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə gücləndirilməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaradıb. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlar miqyasına görə heç bir ölkədə müşahidə olunmur. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərə dövlətimizin diqqət və qayğısı davamlıdır. Ölkəmizin istənilən bir sahəsində uğurları görmək mümkündür ki, bu da insanların firavanlığını təminində mühüm rola malikdir.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi sözləri xatırlatmaq yerinə düşər: "Mən hər bir Azərbaycan vətəndaşı üçün Prezident olacağam. Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Ötən hər bir gün verilən vədlərin əməldə göstəricisi oldu. Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirdi. Əlbəttə ki, güclü dövlət və güclü Liderlik bizə Zəfərimizi yaşatdı. 30 ilə yaxın işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olundu. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. 30 ilin əziyyəti, həsrəti, əzabları xalqımızı sındırmadı və xalqımız irəliyə doğru baxdı. Xalq-iqtidar birliyi gücləndi, Ordumuz gücləndi. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğala son qoyuldu. Əlbəttə ki, xalq-iqtidar birliyi də burada önəmli faktordur. Bu Qələbədə insanlara Zəfər sevincini yaşadan Cənab Prezidentimizə xalqımız minnətdardır. Mənfur düşmənin işğalı altında olan torpaqlarımızın azad edilməsi ilə bağlı dövlət başçısının verdiyi qərarlar bizi Qələbəyə apardı. Əlbəttə ki, Cənab Prezidentin rəhbərliyi altında və güclü Ordumuz sayəsində işğal olunmuş bütün torpaqlarımızın azad ediləcəyinə və üçrəngli bayrağımızın doğma Qarabağımızın hər bir guşəsində əzəmətlə dalğalanacağına hər kəs inanırdı. Bu inam dövlət başçısının siyasətinə, iradəsinə, dünya miqyasındakı nüfuzuna, xalqa sədaqət andına olan inam idi.

## "AZƏRBAYCAN "HÖKUMƏTƏ ETİBAR EDƏN İNSANLARIN ÜSTÜNLÜK TƏŞKİL ETDİYİ ÖLKƏLƏR" SORĞUSUNDA ÜÇÜNCÜ YERİ TUTUB"

Bu günlərdə Yaponiyanın "news.yahoo.co.jp" saytının Azərbaycanın "Hökumətə etibar edən insanların üstünlük təşkil etdiyi ölkələr" sorğusunda üçüncü yeri tutması da məhz dövlət başçısına olan inamın, sevginin bariz nümunəsidir. Saytın "Azərbaycan "Hökumətə etibar edən insanların üstünlük təşkil etdiyi ölkələr" sorğusunda üçüncü yeri tutub" adlı məqaləsində "World Values Survey" beynəlxalq layihəsi tərəfindən keçirilən sorğunun nəticələrindən bəhs edilir. Bildirilir ki, koronavirus pandemiyasının yayıldığı müasir dünyada beynəlxalq vəziyyət ciddi dəyişikliklər yaşayır. Belə olan halda tanınmış beynəlxalq layihə dünya ölkələrində insanlar hökumətə nə qədər etibar edir sualının cavabını araşdırıb. Sorğu zamanı respondentlərdən "Hökumətə etibar edirsinizmi?" sualına cavab verməlai xahiş edilib. Əvvəlcədən hazırlanan variantlar arasında isə "Çox inanıram", "Bir az inanıram", "Həddindən artıq inanıram" cavabları yer alıb. Eyni zamanda, cavablar sırasında "İnanmıram", "Heç inanmıram" və "Bilmirəm" cavabları da göstərilib. Qafqazda, Xəzər dənizinin sahillərində yerləşən Azərbaycanda sakinlərin 89,6 faizi hökumətə inandığını bildirib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xəttinin bu gün dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb. Onu da bildirək ki, məqalədə hökumətə inam bəsləyən insanların 92,9 faiz təşkil etdiyi Vyetnamın ikinci, əhalinin 94,6 faizinin etibar etdiyi Çinin isə birinci yeri tutduğu qeyd edilir. Bu sorğunun nəticələrinə görə Yaponiya 36-cı yerdə qərarlaşıb.

Müasir dövrümüzdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb.

**ZÜMRÜD BAYRAMOVA**

# Yenilməz, qətiyyətli liderin növbəti diplomatik uğuru

*Artıq iki ildən çox müddətdir ki, COVİD-19 pandemiyası bütün dünya üçün bir nömrəli problem olaraq qalmaqdadır. Bir çox ölkənin sarsılmaz görünən iqtisadiyyatı iflasa uğradı. Pandemiya aparıcı Avropa ölkələrinin səhiyyə sisteminin acizliyini üzə çıxardı. Koronavirus pandemiyası "domino effekti"nə səbəb oldu və aparıcı ölkələrin iqtisadiyyatı və sənayeləri tənəzzülə uğradı. Dünya müharibəsi ilə müqayisə olunan COVİD-19 pandemiyası şəraitində özünü təcrid və franqmentar xarakter daşıyan tədbirlər əvəzinə qlobal həmrəyliyə və qlobal baxışa böyük ehtiyac vardır.*



## *BMT Prezident İlham Əliyevin təşəbbüsünü dəstəkləməsi dünyada Azərbaycana olan inamın və etimadın göstəricisidir*

Bu gün Azərbaycan Prezidentinin təşəbbüsü ilə Azərbaycanın "Biz birlikdə güclüyük" fərqli nümunəsinin uğurlu nəticəsi bütün dünya dövlətləri tərəfindən qəbul edilir. Və bu gün nəticə göz qabağındadır - noyabrın 18-də BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Assambleyanın Üçüncü Komitəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətləri tərəfindən qəbul edilib. Xüsusilə vurğulamaq lazımdır ki, COVİD-19 virusundan əziyyət çəkən dünyada vaksinlərin ədalətli bölüşdürülməsi ilə bağlı problem getdikcə böyüməkdədir. İnkişaf etmiş ölkələr dünya əhalisinin cəmi 14 faizini təşkil edir, həmin ölkələr bu günə qədər dünyada ümumi vaksinlərin 80 faizdən çoxunu sifariş edib. ABŞ istehsalı olan "Moderna" vaksininin 98 faizini, Avropa vaksini "Pfizer"in isə 96 faizini sifariş edənlər zəngin ölkələrdir. O zaman sual yaranır ki, bəs, kasıb ölkələrin vətəndaşları nə etməlidirlər? Bu mənada Azərbaycan dünyada ədalətli vaksinasiya prosesinin həyata keçirilməsinin tərəfdarıdır.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev ən yüksək tribunalardan haqlı olaraq dünyanın üz-üzə qaldığı "ədalətsiz vaksin bölgüsü"nü qabardaraq bu problemi həll etməyə çağırıb. 2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində video müraciət vasitəsilə çıxış edən Azərbaycan Prezidenti bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınayıb və Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini elan etmişdi. Noyabrın 18-də BMT Baş Assambleyanın 3-cü komitəsində (insan hüquqları və humanitar) sözügedən qətnamə layihəsi müzakirə olunub və səsverməilə qəbul edilib.

### COVİD-19-la mübarizə üzrə bir çox təşəbbüslərin müəllifi və əməli addımları

Qeyd edək ki, pandemiya başlanan zamandan Azərbaycan COVİD-19-la mübarizə üzrə bir çox təşəbbüslərin müəllifi olub, yeni Azərbaycan həm bu təşəbbüslərin müəllifi olub, həm də bu istiqamətdə əməli addımlar atan, öndə gedən ölkələrdən biridir. İlk gündən cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tərəfindən koronavirusa qarşı regional və qlobal səviyyədə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə bu təşəbbüslər irəli sürülüb və beynəlxalq səviyyədə də 30-dan artıq ölkəyə Azərbaycan tərəfindən humanitar yardımlar edilib. Belə ki, Azərbaycanın təşəbbüsü ilə koronavirusa qarşı mübarizə istiqamətində 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Eyni zamanda Azərbaycan dünyada koronavirusa qarşı vaksinlərin bərabər və ədalətli bölüşdürülməsi üçün də təşəbbüslə çıxış edib və məhz ölkəmizin təşəbbüsü ilə 23 mart 2021-ci il tarixində BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə 133 ölkənin dəstəyi ilə qəbul edilib. Azərbaycan, həmçinin COVAX təşəbbüsünə qoşulan və onu dəstəkləyən ilk ölkələrdən biri olub.

Bu, bir daha onu göstərir ki, Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına qarşı mübarizə naminə beynəlxalq səylərin səfərbər edilməsi sahəsində qlobal liderliyi uğurla davam etdirir, dünya ölkələrinin əksəriyyəti özünə qapandığı dövrdə Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkə adını qürurla qoruyur.

Həmçinin, Möhtərəm Prezidentimizin tapşırığı ilə Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamə 2021-ci ilin mart ayında yekdilliklə qəbul olunmuşdur. Vurğulamaq lazımdır ki, varlı və kasıb ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizə davamlı olaraq Qoşulmama Hərəkatının sədri olan Azərbaycan Prezidenti cənab İlham Əliyevin hər zaman gündəliyində olub. Eyni zamanda, Azərbaycan Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları edib. Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi ayırıb, bu yaxınlarda dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin təqdim edib.

Beləliklə, dünya bir daha şahid oldu ki, Azərbaycan ağır pandemiya dövründə real təşəbbüskar ölkələrin önündə gedib. Bir sözlə, BMT Prezident İlham Əliyevin təşəbbüsünü dəstəkləməsi, son 18 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun dünyada Azərbaycana olan inamın və etimadın göstəricisidir.

**RƏFİQƏ HÜSEYNOVA**

# Gürcü politoloq: Xalqın birliyi Azərbaycanın Vətən müharibəsində Qələbəsini təmin etdi

*Azərbaycanın Vətən müharibəsində Qələbəsini şərtləndirən bir neçə vacib amil var. Onlardan biri bütün xalqın konsolidasiyasıdır. Xalqın birliyi Azərbaycanın Vətən müharibəsində Qələbəsini təmin edən əsas amillərdən biridir.*




Digəri isə Azərbaycan dövlətinin xarici diplomatiyası, güclü lobbi yaratmasıdır. Azərbaycan dövlətinin başçısı bunları etdi və bununla da Vətən müharibəsində Qələbə təmin olundu. AZƏRTAC xəbər verir ki, bunu gürcü politoloq Malxaz Quli̇şvili söyləyib.

Onun sözlərinə görə, Azərbaycan güclü beynəlxalq lobbi yarada bildi. Azərbaycan xarici münasibətlər baxımından kifayət qədər ciddi sıçrayışa nail olaraq ərazi bütövlüyünü bərpa etdi. Ekspert deyib ki, Gürcüstan da ərazi bütövlüyünü bərpa etmək istəyirsə, Azərbaycanın yolunu keçməlidir.

"Azərbaycan və Ermənistan arasında vasitəçilik üçün isə Gürcüstanın güclü mövqeyi olmalıdır və prosesə beynəlxalq oyunçular da cəlb edilməlidir", - deyə M.Quli̇şvili vurğulayıb.

# Andrey Rudenko: Son hadisələr regionda vəziyyəti dəyişdirdi və biz yeni reallıqlara uyğunlaşmalıyıq

***Rusiya ümidvardır ki, Cənubi Qafqaz üzrə "3+3" formatlı görüşün (Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiya, Türkiyə, İran) keçirilməsi "qısamüddətli perspektiv" məsələsidir. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya XİN başçısının müavini Andrey Rudenko TASS-a bildirib.***



Diplomat deyib: "Hələ ki, bu məsələlərin işlənib hazırlanması prosesi gedir, bütün iştirakçıların razılıqlarını almaq lazımdır. Buna nail olunduqda, biz görüşün harada təşkil olunacağını elan edəcəyik. Ümid edirik ki, bu, qısamüddətli perspektiv məsələsidir".

A.Rudenko əlavə edib ki, görüşün altı dövlətdən birinin paytaxtında keçirilməsi planlaşdırılır. Tbilisi diskussiyalarda iştirak etməyə hazır olmasını bəyan etməyənədək Cənubi Qafqazın üç respublikası və Rusiya, Türkiyə, İranın iştirakı ilə "3+3" formatının tərkibində Gürcüstan üçün yer qorunub saxlanılacaq.

Rusiya xarici işlər nazirinin müavini bildirib ki, bu formatın yaradılması təşəbbüsü Türkiyə və Azərbaycan liderlərinə məxsusdur. O deyib: "Bu iki ölkənin prezidentləri "3+3" formatında, - Cənubi Qafqazın üç ölkəsi, Rusiya, Türkiyə, İran, - toplaşmaq və son hadisələr kontekstində bütövlükdə regionda vəziyyəti müzakirə etmək ideyasını dilə gətiriblər. Əlbəttə, son hadisələr regionda vəziyyəti dəyişdirib və biz hər hansı yolla yeni reallıqlara uyğunlaşmalıyıq. Bu obyektiv reallıqdır, onu olduğu kimi qəbul etmək lazımdır".

A.Rudenko izah edib ki, Moskva bu təşəbbüsü dəstəkləyib, çünki onu perspektivli hesab edir. "Region ölkələrini bir masa arxasına toplamaq perspektiv ideyadır. Çünki regional problemləri məhz onlar həll etməlidirlər", - deyə RF XİN başçısının müavini sonda vurğulayıb.

# “Birgə səyləri fəallaşdırmaq barədə razılığa gəldik...”

## Üçtərəfli bəyanatın tam mətni

***Xəbər verdiyimiz kimi, bu gün Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Bəyanat imzalayıblar. Bəyanatda deyilir:***

”Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin 2021-ci il noyabrın 26-da Soçi şəhərində görüşdük və Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tamamilə dayandırılması haqqında 2020-ci il 9 noyabr tarixli Bəyanatın, həmçinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında 2021-ci il 11 yanvar tarixli Bəyanatın yerinə yetirilməsinin gedişini müzakirə etdik.

Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və iqtisadi inkişafın təmin edilməsi naminə 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatların bütün müddəalarının bundan sonra ardıcıl surətdə yerinə yetirilməsinə və dönmədən riayət olunmasına tərəfdar olduğumuzu təsdiq etdik. 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlardan irəli gələn, həllini gözləyən məsələlərin tezliklə həllinə yönəlmiş birgə səyləri fəallaşdırmaq barədə razılığa gəldik.

Regionda vəziyyətin sabitləşməsinə və təhlükəsizliyin təmin edilməsinə Rusiya sülhməramlı kontingentinin mühüm töhfəsini qeyd etdik.

Azərbaycan-Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımlar atmağı və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiya yaradılması barədə şərtləşdik.

2021-ci il 11 yanvar tarixli Bəyanata müvafiq olaraq, Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirlərinin müavinlərinin və Rusiya Federasiyası hökumətinin sədrinin müavininin birgə sədrliyi ilə regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə təsis edilmiş Üçtərəfli İşçi Qrupunun fəaliyyətini yüksək qiymətləndirdik. Regionun iqtisadi potensialının üzə çıxarılması məqsədilə konkret layihələrin tezliklə həyata keçirilməsinin zəruriliyini vurğuladıq.

Rusiya Federasiyası Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşması, Azərbaycan və erməni xalqları arasında etimad mühitinin formalaşması, habelə regionda mehriban qonşuluq münasibətlərinin bərqərar olması məqsədilə bundan sonra da zəruri olan hər cür köməyi göstərəcək.

Azərbaycan Respublikasının Prezidenti
İ.H.Əliyev
Ermənistan Respublikasının baş naziri
N.V.Paşinyan
Rusiya Federasiyasının Prezidenti
V.V.Putin”



Заявление
Президента Азербайджанской Республики,
Премьер-министра Республики Армения и
Президента Российской Федерации

26 ноября 2021 года

Мы, Президент Азербайджанской Республики И.Г.Алиев, Премьер-министр Республики Армения Н.В.Пашинян и Президент Российской Федерации В.В.Путин, встретились 26 ноября 2021 года в г.Сочи и обсудили ход реализации Заявления от 9 ноября 2020 года о полном прекращении огня и всех военных действий в зоне нагорно-карабахского конфликта, а также Заявления от 11 января 2021 года о разблокировке всех экономических и транспортных связей в регионе.

Подтвердили приверженность дальнейшему последовательному выполнению и неукоснительному соблюдению всех положений заявлений от 9 ноября 2020 г. и 11 января 2021 г. в интересах обеспечения стабильности, безопасности и экономического развития Южного Кавказа. Договорились активизировать совместные усилия, направленные на скорейшее решение остающихся задач, вытекающих из заявлений от 9 ноября 2020 г. и 11 января 2021 г.

Отметили важный вклад Российского миротворческого контингента в стабилизацию обстановки и обеспечение безопасности в регионе.

Условились предпринимать шаги по повышению уровня стабильности и безопасности на азербайджано-армянской границе и вести дело к созданию двусторонней Комиссии по делимитации государственной границы между Азербайджанской Республикой и Республикой Армения с последующей ее демаркацией при консультативном содействии Российской Федерации по запросу сторон.

Высоко оценили деятельность учрежденной в соответствии с Заявлением от 11 января 2021 г. Трехсторонней рабочей группы под совместным председательством вице-премьеров Азербайджанской Республики, Республики Армения и Заместителя Председателя Правительства Российской Федерации по разблокированию всех экономических и транспортных связей в регионе. Подчеркнули необходимость скорейшего запуска конкретных проектов в целях раскрытия экономического потенциала региона.

Российская Федерация будет и далее оказывать все необходимое содействие в интересах нормализации отношений между Азербайджанской Республикой и Республикой Армения, формирования атмосферы доверия между азербайджанским и армянским народами, а также выстраивания добрососедских отношений в регионе.

Президент Азербайджанской Республики — И.Г.Алиев
Премьер-министр Республики Армения — Н.В.Пашинян
Президент Российской Федерации — В.В.Путин

# Bütün bunlar Fransanın ikiüzlü siyasətindən başqa bir şey deyil




***“Fransa uzun illər erməni lobbisinin əsas təşkilatlandığı dövlətlərdən biri olub və bu tendensiya bu gün də davam etməkdədir. Erməni lobbisinin Fransanın həm daxili, həm də xarici siyasətinə təsir imkanına malik olması ona müstəqli qərarlar qəbul etməyə imkan vermir.***

Hər zaman özünü demokratiyanın beşiyi hesab edən Fransanın ermənilərə və Ermənistana belə böyük sevgi göstərməsinin arxasında da məhz bu amil dayanır. Bunu nəzərə alaraq deyə bilərik ki, istənilən erməni separatçı qüvvələrinin Fransa tərəfindən dəstəklənməsi və onlara meydan verilməsi prosesi bundan sonra da davam edəcəyinə şübhə qalmır”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Samir Hümbətov deyib.

Ekspertin sözlərinə görə, əlbəttə ki, əli daima müsəlman qanına batmış Fransanın digər dövlətlərə demokratiya və insan haqları dərsi keçməsi, onun necə ikiüzlü siyasət yürütdüyünün bariz nümunəsidir: ”Fransanın Ruandada, Əlcəzairdə törətdiyi qətillər insanlıq əleyhinə soyqırım cinayəti kimi qəbul edilir. Buna baxmayaraq Fransa tərəfi hər zaman özünü təmiz göstərməyə çalışır. Əlbəttə ki, tarix unudulmur. Bu qədər müsəlmanı qətl etmiş bir dövlətdən separatçılara dəstək verməkdən başqa bir əməl gözləmək mümkün də deyil”.

Politoloq hesab edir ki, bütün dünya, hətta Fransanın özü də Azərbaycanın BMT-yə qəbulu zamanı onun ərazi bütövlüyünü tanıyıb və qəbul edib: Əgər, indi Fransa Azərbaycana qarşı belə absurd bəyanat səsləndirirsə, deməli onun xarici siyasət strategiyası hələ də qeyri-müəyyən olaraq qalmaqdadır. 1997-ci ildən bəri Fransanın ATƏT-in Minsk qrupunun üç həmsədrlərindən biri olması Azərbaycan ərazilərinin 30 ilə qədər Ermənistan tərəfindən işğal altında qalmasında əsas amil hesab edilir”.

S.Hümbətov vurğulayıb ki, Fransanın xarici siyasətində terror və terrorçuluğa dəstək verilməsi bu günün və yaxud dünənin hadisəsi deyil: ”Fransa ya terroru birbaşa özü həyata keçirib, yaxud da İŞİD və digər terrorçu qruplaşmalara dəstək verməklə dəstəkləyib. İŞİD-in Suriyada yeni meydana gəldiyi zaman Fransa tərəfindən ona verilən dəstək beynəlxalq sənədlərə də daxil edilib. Fikrimcə, bundan sonrakı mərhələdə Fransadan Azərbaycana qarşı doğru addım atılacağını gözləməyin özü belə yalnış olar”.

***Aysel Məmmədova***

# “Vətən müharibəsində aldıqları dərs ermənilərin yaddaşından əsrlərlə silinməyəcək”



***Ermənistanın bütün mənalarda rəzil duruma düşməsinin başlıca səbəbi erməni xalqının daimi şizofrenik vəziyyəti ilə bağlıdır. Proseslərin məntiqini bu və ya digər səviyyədə dərk edən bəzi ermənilər tarix boyu əzildiklərini, nəticədə bir şey əldə edə bilmədiklərini etiraf edirlər. Əslində, belə də olmalıdır. Sağalmaz şəkildə xəstə psixologiyaya malik olan, hər zaman dağıdıcılığı, vandalizmi, terroru fəaliyyətinin əsas istiqaməti kimi nümayiş etdirən bir xalqın aqibəti fərqli ola bilməzdi.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, Sosial Tədqiqatlar Mərkəzinin (STM) İdarə Heyətinin sədr müavini, siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu deyib.

E.Mirbəşiroğlunun sözlərinə görə, regionda maraqları olan istənilən dövlət, ilk növbədə, erməniləri alət kimi görür. Çünki, region xalqlarından yalnız ermənilərin genetik kodunda qeyri-erməni olan hər bir kəsə münasibətdə yırtıcılıq, vəhşilik hissləri var. Vaxtilə rus tədqiqatçısı Veliçko yazırdı ki, ermənilər Qafqazda qeyri-erməni olan hər kəsi, hətta rusları da məhv etməyə hazırdırlar. O, qeyd edirdi ki, Azərbaycanın Tərtər kəndində rusların yaşadığı əraziyə erməni həkim göndərilmişdir. Bu həkim də tam əks müalicə apararaq, xəstələrin ölməsi üçün əlindən gələni edirdi. Bu zaman ”gəbərin rus köpəkləri” ifadəsini işlətməkdən də çəkinmirdi. Ermənilərin bu xarakterinin planetar təhlükə olduğu şübhəsizdir.

”Bu xəstə xalq başa düşmür ki, qonşu xalqlara, xüsusilə də Azərbaycan xalqına qarşı barışmaz düşmənçiliyi nəticədə özlərinə baha başa gəlir. Yəni, ermənilər özləri özlərinə qəsd edirlər və bunu dərk etmirlər. Dərk etmiş olsaydılar, ”ərik ölkəsi” partiyasının rəhbəri Zaruyi Postancyan özünün nə dərəcədə mənəvi deqradasiyaya uğradığını nümayiş etdirərək xalqımıza qarşı olduqca təhqiramiz ifadələr işlətməyə cəsarət etməzdi. Növbəti dəfə müşahidə edirik ki, rasizm, faşizm ermənilərin qanındadır və onları xilas etmək mümkün deyil”, - deyə siyasi elmlər doktoru vurğulayıb.

Deputat qeyd edib ki, bu başıpozuq xalqı hərəkətləndirən yalnız bir amil var, o da azərbaycanlılara nifrətdir. Bununla da, ermənilər həm də dünyaya nümayiş etdirirlər ki, onlar dinc-yanaşı mövcud olmaq mədəniyyətindən çox-çox uzaqdırlar. Amma Vətən müharibəsində aldıqları dərs əsrlərlə ermənilərin yaddaşından silinməyəcək. Ermənilər bu dərsdən nəticə çıxarmasalar, dövlət və xalq olaraq mövcudluqlarını itirmək təhlükəsi qarşısında qalacaqlar.

***İnkişaf, elmi-texniki tərəqqi, innovasiyalar, yeni texnologiyalar insan cəmiyyəti üçün yeni imkanlar yaradır və perspektivlər vəd edir. Yetər ki, məhz insan cəmiyyəti bu imkanları müsbət istiqamətdə dəyərləndirsin və bu imkanlardan xoş məram üçün, ağıllı, ədalətli, qanuni şəkildə istifadə etsin. Əks halda bütün bunlar məhz insan cəmiyyətinin əleyhinə işləyə, bu cəmiyyətə mənfi təsirlər göstərə bilər. Eyni ilə elektrik enerjisinin həyatımızı işıqlandırmaqla yanaşı, yanğınlara səbəb olmaq, hətta insan həyatına son qoymaq imkanları kimi.***



TƏHLİL

# Sosial şəbəkədə ikili, ədalətsiz, qərəzli yanaşma

Hazırda həyatımızı elmi-texniki tərəqqinin, yeni texnologiyaların məhsulu olan interntsiz təsəvvür belə etmək mümkünsüzdür, halbuki bir zamanlar bu barədə insan cəmiyyətinin təsüvvürü belə yaranmamışdı və yox idi. İndi internet insan cəmiyyəti üçün geniş imkanlar yaradır və bu imkanlar barədə sadalamağa da dəyməz, çünki hər kəs bu barədə kifayət qədər məlumatlıdır. Ələlxüsus, informasiyanın əldə edilməsi, işlənib hazırlanması, ötürülməsi baxımından bu kəşfin tayı-bərabəri yoxdur. Bir zamanlar günlərlə məktubların ünvanına çatdırılmasını gözləyənlərin indi bunun üçün saniyələr belə gözləməsinə ehtiyac qalmır. Təbii ki, internetin ardınca da sosial şəbəkələrin yaradılması müxtəlif platformaların meydana çıxmasına səbəb oldu. İnsan cəmiyyəti bu şəbəkələr vasitəsi ilə virtual şəkildə əlaqələr yarada, müzakirələr apara, hətta bir çox məsələlərin həllinə nail ola bilir.



Sosial şəbəkələr arasında ən geniş yayılanlardan biri də Facebook kimi tanıdığımız sosial şəbəkədir və bu şəbəkənin də geniş imkanlar yaratdığı heç kim üçün sirr deyil. Az qala yer kürrəsi sakinlərinin yarıdan çoxu bu şəbəkə istifadəçisidir və onun imkanlarından faydalanır. Dünyanın istənilən yerində olan şəbəkə istifadəçisi ilə, özü də ən sürətli şəkildə əlaqənin yaradılması üçün Facebook əvəzsizdir. Xüsusilə, bəzi məsələlərin müzakirəsi, maariflənmə baxımından əhəmiyyətini qətiyyən danmaq olmaz.

İndi informasiya mübadiləsi üçün Facebook sosial şəbəkəsinin geniş platforma olduğu günün reallığıdır. Etiraf etmək lazımdır ki, insan cəmiyyəti informasiyanı bir çox hallarda kütləvi informasiya vasitələrindən də öncə məhz bu platformadan əldə edir. Doğrudur, kütləvi informasiya vasitələrindən fərqli olaraq bu şəbəkədə informasiya senzuradan keçmədən paylaşılır və bəzən də həqiqətdən uzaq, hətta, təəssüf ki, qərəzli də ola bilir. Bu isə bir qədər öncə qeyd etdiyimiz kimi insan cəmiyyətinin bu imkanlardan, bu platformadan müsbət istiqamətdə, ədalətli, qanuni, doğru istifadəsindən bilavasitə asılıdır.

Facebook şosial şəbəkəsində hər kəsin şəxsi hesabı olduğu kimi, şəxsi yanaşması da var və bəyan edildiyinə görə bu yanaşmanın yayımlanması müəyyən olunmuş qaydalarla tənzimlənir. Əslində, hamı üçün eyni olması fonunda belə bir tənzimlənmə təqdirəlayiqdir, amma əfsus ki, heç də müşahidələrimiz bunu deməyə əsas vermir. Əksinə, onu deməyə əsas verir ki, Facebook sosial şəbəkəsində də bir çox platformalarda müşahidə olunan ikili standartlar, ikili yanaşmalar, özü də ədalətsiz yanaşmalar tətbiq olunur. Məsələ burasındadır ki, Facebook sosial şəbəkəsinin Azərbaycan seqmentinə qarşı bir qıcıq olduğu özünü hər addımbaşı göstərir. Bu şəbəkənin azərbaycanlı istifadəçilərinə qarşı qərəzli münasibət dərhal hiss olunur. İndi az qala hər bir azərbaycanlı bizimlə bu barədə şərik ola, razılaşa bilər və təsdiq edər ki, ona məxsus olan sosial şəbəkə hesabına ən azı bir dəfə məhdudiyyətlər tətbiq edilib. Azərbaycanlılara məxsus bəzi hesablara bir çox hallarda şərh yazmaq, bəzilərinə isə hər istiqamətdə məhdudiyyətlərin tətbiq edildiyinin də dəfələrlə şahidi olmuşuq.

Eyni zamanda onu da nəzərə çatdıraq ki, informasiya müharibəsi dediyimiz cəbhədə də ədalətsiz yanaşmanın şahidi olduq. Məsələn, düz bir il bundan əvvəl Ermənistan tərəfinin təxribatlarına, işğalçılıq yolu ilə yeni torpaqlar zəbt etmək niyyətlərinə cavab olaraq başladılan əks hücum əməliyyatları və 44 gün davam edən müharibə zamanı da Facebook azərbaycanlı seqmentinə qarşı ədalətsizlik oldu. Ermənistanın bir-birinin ardınca hər atəşkəsdən sonra Azərbaycana qarşı terror aktları törətməsi Azərbaycan ictimaiyyətinin haqlı etirazına səbəb olub və bununla bağlı olaraq, ölkəmizdə vətəndaş cəmiyyətinin üzvləri, media nümayəndələri, blogerlər, siyasətçilər, millət vəkilləri durmadan beynəlxalq ictimaiyyəti maarifləndirmək üçün müxtəlif məlumatları sosial şəbəkələrdə, sosial platformalar üzərində paylaşmağa başlayıblar. Qeyd edək ki, ən çox paylaşımlar ”Facebook”, ”Teleqram” və ”Tvitter” üzərindən aparılırdı və çox təəssüf ki, daha çox auditoriyaya malik olan ”Facebook” sosial şəbəkəsi sözün əsl mənasında Azərbaycan seqmentini məyus etməyi bacardı. Sırf Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı edilən paylaşımların çox qısa zamanda ”Facebook”un nəzarətçilərinin diqqətini cəlb etməyə başlaması dərhal hiss olunurdu. Ölkədə bu kimi paylaşımlar edənlərin profillərinə müxtəlif məhdudiyyətlər qoyulmağa başladı. Yüzlərlə insanın profillərində müxtəlif funksiyalar bağlanıb, bir çox insan şərh yazmaq, status paylaşmaq kimi səlahiyyətlərdən məhrum edilib, hətta bəzi profillər saxta kimi göstərilərək ümumiyyətlə, ləğv edilib.

Facebook-un azərbaycanlı istifadəçilərinin paylaşımlarına, şərhlərinə məhdudiyyətlər qoyulduğu, bəzi hallarda şəxsi hesabların hətta bloklandığı halda, bu şəbəkənin erməni seqmentinə heç bir məhdudiyyətlər qoyulmadı. Ermənistan tərəfindən şəxsi hesabların bağlanması, bloklanması barədə heç bir şikayətin olmaması bunu təsdiqləyir və təbii ki, əgər erməni seqmentinə də məhdudiyyətlər tətbiq olunsaydı hansısa şikayətlər olunardı. Deməli, məhz bizə məhdudiyyətlər qoyuldu və bir sözlə, yalnız bizə qarşı ədalətsiz davranıldı. Diqqətə çatdıraq ki, bu barədə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ”Facebook” şirkətinin rəhbərliyinə informasiya müharibəsində narahatlıq yaradan məqamlar barədə məktub da ünvanlayıb. Müraciətdə son zamanlar Facebook və İnstaqram sosial şəbəkələrində narahatedici tendensiyaların müşahidə edildiyi diqqətə çatdırılıb. Məktubda Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 27-də Ermənistanın təcavüzünü dayandırmaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə zəruri əks-hücum tədbirlərinə başladığı vurğulanıb. Nazirlik bu şəbəkəyə ünvanladığı məktubda qeyd olunan məsələlərin müzakirəsi üçün şirkət tərəfindən müvafiq koordinatorun təyin edilməsini də tələb edib.

Azərbaycanın bununla bağlı ünvanladığı müraciət tam yerində, vaxtında edilmiş bir müraciət hesab olunsa da ”Facebook”dan bununla bağlı müsbət cavab gəlməsinin nə şahidi olan oldu, nə də şahidi olacaq. Çünki, bu qərəzin, bu ədalətsizliyin kökündə yenə də erməni məkrinin durduğu bəllidir. Düzdür, Azərbaycan hökuməti bu şəbəkənin ölkə daxilində fəaliyyətinə müəyyən seqmentlər qoya bilər və bununla da ”Facebook” atdığı addımlarda bir daha düşünmək məcburiyyətində qalmalı olar. İstənilən halda ədalətsizlik, qərəz xoş hal deyil və bunu sözügedən şəbəkə nəzərə almalıdır. Nəzərə almalıdır ki, ədalətsizlik, qərəz birbaşa sosial şəbəkələrdən istifadə qaydalarının hüquq və normalarına ziddir. Özü də həssas bir məqamda ”Facebook”un ayrı-seçkiliyi, ikili yanaşması tamamilə böyük bir ikrah doğurur. Beynəlxalq platformalar əfsus ki, adətən bu kimi məsələlərə ümumi yanaşma, ümumi münasibət sərgiləyir.



”Facebook”da kifayət qədər ermənilərin işlədiyi barədə məlumatlar var. Onlar ”Facebook” da istər yüksək, istərsə də texniki vəzifələrdə çalışırlar. Təbii ki, bu fakt da öz növbəsində bu sosial şəbəkənin azərbaycanlı seqmentinə təsirsiz ötüşə bilməz. Hətta bu təsirlər müxtəlif formalarda da təzahür edib. Məsələn, ikinci Qarabağ müharibəsi dövründə türk və azərbaycanlı adları ilə ermənilərin özlərinə saxta hesablar yaradaraq azərbaycanlıların müxtəlif postların şərh bölmələrində təhqir olunması faktları aşkarlanıb. Bu barədə İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) ”Azərbaycanlılara qarşı nifrət cinayətləri və nifrət nitqinə dair” hesabatında da bildirilir. Hesabatda q eyd olunur ki, bu kimi məsələlərdə ”Facebook” şirkətində çalışan erməni əsilli şəxslərin köməyindən istifadə olunub, bu hallar hələ də davam edir və həmin erməni əsilli əməkdaşlar video-müraciətlər vasitəsi ilə ermənilərə azərbaycanlılara məxsus hesabların bağlanılması barəsində yardım edəcəklərini də bildiriblər. Bu cür troll hesabların açılmasının qarşısının alınması və onların şikayət edilərək silinməsi üçün də müxtəlif tədbirlər görülməsi sözsüz ki, son dərəcə vacibdir.

Doğrudur tədbirlər görülür və müəyyən addımlar da atılır. Məsələn, ”The New York Globe” nəşri qeyd edir ki, 4 milyondan çox azərbaycanlı Facebook istifadəçisi tərəfindən imzalanmış bir müraciət Mark Zuckerberqə ünvanlanıb. Müraciətdə deyilir ki, Facebook baş verən olaylara ədalətli yanaşmalıdır. Facebook bəyan olunmuş bəlli standartlarına hörmət etməlidir. Bu sosial şəbəkə etnik erməni əməkdaşları Facebookun azərbaycanlı istifadəçilərinin sülh çağırışlarına söykənən statuslarının yayılmasına imkan vermirlər. Bu isə Facebookun dəyərlərinə zidddir. Qeyd olunur ki, petisiya formalı müraciətdə belə deyilir. Yəni, sosial şəbəkənin azərbaycanlı seqmenti heç də vəziyyətlə barışmayıb, bununla mübarizə aparır və erməni seqmenti düşünməsin ki, sosial şəbəkə daim onların təsirləri altında qalacaq. Xeyr, bu belə olmayacaq, təbii ki, bunun da qarşısı alınacaq.

Göründüyü kimi, sosial şəbəkədə ikili, ədalətsiz, qərəzli yanaşma heç cür qəbul olunmur və virtual aləmdə də ermənilərlə azərbaycanlılar arasında savaş mövcuddur. Bir daha xatırladaq ki, 4 milyon azərbaycanlının eyni sənədə İnternet üzərindən imza atması da sıradan bir addım deyil və çox ciddi faktdır. Əvvəla, bu onun göstəricisidir ki, Azərbaycan xalqı birlik, bütövlük, həmrəyliklə işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda döyüşdüyü və qalib gəldiyi kimi virtual aləmdə də ermənilərə qalib gəlmək əzmindədir. Digər tərəfdən Facebookun timsalında bütün sosial şəbəkələr bilməlidirlər ki, Qarabağda beynəlxalq hüququ, ədaləti bərpa edən Azərbaycan cəmiyyətinin virtual aləmdə də ədaləti bərpa etmək imkanı, gücü, iradəsi var.

***İnam Hacıyev***

# "Erməni demokratiyası"na inanmayan özbəkistanlı erməni

**_Deməli, bu günlərdə ABŞ Dövlət Departamenti öz saytında ölkə prezidenti Cozef Baydenin ev sahibliyi edəcəyi "Demokratiya Sammiti"nə dəvət olunmuş 110 ölkənin siyahısını dərc edib. Belə ki, dəvətlilər arasında Ermənistanın da adının yer alması, bu ölkədə böyük bir sevincə səbəb olub: "...Görün, baxın biz... həqiqətən də, demokratik ölkələrin gözəl şirkətindəyik". Deyim ki, bunu da ermənilər yazır._**



Onların ancaq özlərinə məxsus olan düşük düşüncələrinə görə, sən demə, nəinki qonşu, hətta dünya dövlətləri belə "erməni demokratiyası"nı dərindən oxuyub, onun "unikl məziyyətlərini" öyrənməlidirlər.

...Təbii ki, bu səpkili erməni yazılarına vaxt ayırıb diqqət yetirmək vaxt itkisi olsa da, amma ermənilərin burada da dinc dayanmayıb Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və hətta farsdilli Tacikistanın kimi dövlətlərin ünvanına hədyanlar söyləyib, bu ölkələrin demokratiya barədə heç bir "anlayış"larının olmamasını söyləmələri, təbii ki, bu millətin səviyyəsiz səviyyəsindən xəbər verir.

Nə isə.., mən burada "ermənilərin bəyənməyib", "demokratiyadan anlayışı olmayan" bu bu ölkələrdə yaşayan ermənilərin sayı, yaşam tərzi barədə bəzi xronoloji faktları diqqətinizə çatdırmaq istəyirəm.

Beləliklə, rəsmi rəqəmlrə görə, bu gün Özbəkistanda "erməni demokratiyası" mövcud olmasa da, amma bu ölkədə 70 minə yaxın erməni yaşayır. Onlar əsasən Özbəkistanın Səmərqənd, Daşkənd, Buxara və digər böyük şəhərlərində yaşayıb və ölkə vətəndaşları kimi ölkənin bütün imtiyazlarından yararlanırlar.

Deyim k, erməni sayı Qazaxıstanda 20-25 min kimi göstərilir. Belə ki, daha çox Karaqanda, Alma-Ata, Pavlodar kimi şəhərlərdə yaşayan ermənilər də özbəkistanlı ermənilər kimi yaşayışlarından çox məmundurlar.

Qeyd edim ki, bu gün Qırğızıstan və Tacikistanda qonşu dövlətlərlə müqayisədə az da olsa erməni yaçayır. Belə ki, onların sayı hər iki ölkədə 1000 nəfər kimi göstərilir.

Bu arada bəzilərinə inandırıcı görünməsə də, amma hazırda Türkmənistanda 30 minə yaxın ermənin yaşadığı bildirilir. Bu ölkədə ermənilər daha çox Aşqabad (20600), Türkmənbaşı (3000), Mari (3000) və Türkmənabad (2100) şəhərlərində cəmləşiblər.

...İndi mənə maraqlıdır, vaxtilə Ermənistan əhalisinin sayını 5 milyona çatdıracaqları barədə "öhdəlik götürən" Serjik Sarkisyanın, sonradan lap elə Nikol Paşinyanın çağırışlarına niyə Orta Asiyada, türk xalqlarının qanadı altına sığınan ermənilər heç bir reaksiya vermədilər? Niyə buradakı "avtoritar" rejimi "Ermənistan demokratiyası" ilə dəyişmək istəmədilər? Görən, bu gün Ermənistanda yaşayan erməni başbilənləri bunu az da olsa, başlarına vururlarmı?

Erməni elə həmişə ermənidir və təbii ki, bu millət hər zaman da çörəyi bol olan ölkəni özünə vətən bilib.

...Gəlin etiraf edək ki, əgər Orta Asiya ölkələrində yaşayan ermənilər İrəvandakı demokratların "erməni demokratiyası" barədə dediklərinin reallığına inansaydılar, onlar çoxdan Ermənistana qayıtmış olardılar.

***Ağasəf Babayev***

# ABŞ-dakı "Demokratiya Forumu"nda demokratiya əlaməti yoxdur

## Müxalifətçi funksioner: "Forumda" iştirak edəcək 110 ölkənin siyahısı, yüngül desəm, ciddi suallar yaradır"



Məlum olduğu kimi, ABŞ-da "Demokratiya Forumu" adlı tədbir keçiriləcək və bu tədbirin keçirilməsinin pərdəarxası məqamlarından da biri budur ki, onun baş tutması üçün ən çox canfəşanlıq edənlər bir sıra ölkələrdə "demokratiya" adı altında inqilablar törədənlər, siyasi quruluşları dəyişməklə vassallıq yaradanlar, ümumiyyətlə, Soros kimi araqarışdıranların maraqlarını təmin edənlərdirlər. Bu mənada, hazırda Azərbaycanda özlərini "əsas müxalifət", yaxud "demokratik düşərgə" kimi zorən ictimai rəyə sırıyanlar Azərbaycanın nəyə görə həmin dırnaqarası tədbirə dəvət alınmamasını ölkə hakimiyyətinə ittiham yağdırmaqla bağlırlar. Lakin görünən budur ki, Azərbaycanın bu kimi lazımsız və qeyri-səmimi tədbirlərdə iştirak etməsinin ümumiyyətlə, marağı və arzusu yoxdur. Bu fakt isə növbəti dəfə sübut edir ki, sözügedən "əsas müxalifət" əslində satılmış, xarici təşkilat və qurum agentləri, dosonçuları və s. tipli fərdlərdən başqa heç nə deyil.

ABŞ-ın indiki yanaşmasının uğurlu olması çətin görünür

Və bu gün Azərbaycanda fəaliyyət göstərən digər müxalifət partiyaları da var ki, onlar ABŞ-dakı "Demokratiya Forumu"a haqlı olaraq barmaqarası baxır, tədbirin səmimiyyətdən kənar, heç bir demokratik dəyərlərə xas olmadığını qeyd edirlər.

SİA xəbər verir ki, ReAl partiyasının funksioneri Natiq Cəfərli də hesab edir ki, həmin tədbirin heç bir demokratik dəyərlərə aidiyyatı yoxdur. "ABŞ-ın təşəbbüsü ilə "Demokratiya Forumu" adlı bir online tədbir keçiriləcək. Dünya üzrə 110 ölkə tədbirə dəvət alıb, siyahıya baxanda, ölkə adlarını görəndə anlayırsan ki, bu forumun "demokratiya" ilə əlaqəsi yoxdur", deyən müxalifətçi partiya funksioneri onu da qeyd edib: "Forumda" iştirak edəcək 110 ölkənin siyahısı, yüngül desəm, ciddi suallar yaradır, maraqlı formatın əhəmiyyətini azaldır...Və ya, necə ola bilər ki, İraq bu tədbirə dəvət alsın, amma Macarıstan yox?! Macarıstanda seçki də var, demokratik təsisatlar da, iqtisadi institutlar da. Bəs İraqda nə var?!"

Onun sözlərinə görə, ABŞ-ın indiki yanaşmasının uğurlu olması çətin görünür və heç bir əhəmiyyət kəsb etməyəcək.

***Rövşən RƏSULOV***

# Lirənin ucuzlaşması nələrə səbəb olacaq? İQTİSADÇI ŞƏRH ETDİ

***"Hesab edirəm ki, Türkiyədə faktiki olaraq lirənin ucuzlaşması ilə bağlı olan proseslər Türkiyə iqtisadiyyatında böyük izlər qoyacaq. Eyni zamanda, bu, Türkiyə iqtisadiyyatının dərin sistemli zəiflikləri ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Elşad Məmmədov deyib.***



Onun sözlərinə görə, bir tərəfdən doğrudur ki, daxili istehlak bazarında yerli məhsulların kifayət qədər çox olması Türkiyədə sosial problemlərin dərinləşməsinin qarşısını alır: "Amma eyni zamanda, Türkiyə enerji daşıyıcıları və digər bir sıra mühüm əmtəə qrupları üzrə idxaldan asılı ölkədir. Türkiyədə idxal ənənəvi olaraq ixracı üstələyir. Xarici ticarətdə kəsr var və Türkiyədə milli valyutanın sabitliyi xeyli dərəcədə investisiya axınlarının müsbət saldosu ilə təmin edilmiş olurdu. Hazırda isə biz görürük ki, müxtəlif təzyiqlər nəticəsində ilk növbədə, qərb dövlətləri tərəfindən tətbiq olunan sanksiyaların nəticəsində, kapital axınının Türkiyə dövləti tərəfindən qarşısının alınmaması üçün faktiki olaraq investisiya axınlarında da problemlər var. Bu da sözsüz ki, Türkiyə iqtisadiyyatına çox güclü təsir vurmaqdadır".

"Hesab edirəm ki, Türkiyə Prezidentinin kredit siyasətinin yumuşaldılması ilə bağlı israrlı siyasəti adekvatdır. Çünki, Türkiyədə istehsalın stimullaşdırılması, iqtisadi artımın təmin olunması üçün bu tələb olunur. Eyni zamanda, Türkiyə istehsal və ixracatdan asılı ölkədir. Ona görə Türkiyə biznesinin ayaqda qalması olduqca önəmlidir. Pul kredit siyasətinin sərtləşdirilməsi düşünürəm ki, vəziyyətdən çıxış yolu hesab edilə bilməz. Amma bununla yanaşı şübhəsiz ki, Türkiyə iqtisadiyyatının potensialının zəif olması amili reallıqdır. Nə təbii resurs bazası, nə iqtisadiyyatda tələb olunan istehsal gücləri lazımi səviyyədə deyil".

İqtisadçı sözlərinə belə davam edib: "İstehsal potensialı tam güclə işləyir və ixracatın artımı üçün də demək olar ki, o qədər də böyük imkanlar yoxdur. Bununla yanaşı idxalda enerji daşıyıcılarından xüsusilə asılılıq yüksək səviyyədədir. Bütün bunlar da Türkiyə üçün böyük bir problemdir".

"Düşünürəm ki, əgər Rusiya ilə Azərbaycan Türkiyəyə kifayət qədər komfortlu qiymətlərlə qaz ixrac etməsəydi, biz, bu gün Türkiyədəki problemlərin böyük sosial fəsadlarının şahidi olacaqdıq. Ona görə də, düşünürəm ki Azərbaycan və Rusiyanın hazırki şəraitdə Türkiyədə daxili sabitliyin qorunmasında rolu olduqca yüksəkdir. Bütün bu proseslər Türkiyəni çox böyük dilemma qarşısında qoyacaq. Türkiyədə daxili sabitliyin qorunması üçün bu dövlətin Avrasiya məkanına inteqrasiyası ən optimal variantdır".

***Ayşən Vəli***

# "Sülhməramlı kontingent öz missiyasını yerinə yetirməkdə maraqlı deyil"

***"10 noyabr 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanan üçtərəfli bəyanata uyğun olaraq, Rusiyanın sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilirdi." Bu sözləri SİA-ya açıqlamasında Beynəlxalq Dialoq və İnkişaf Alyansının sədri, tarix elmləri namizədi Nüşabə Məmmədova deyib.***



Alyansın sədri vurğulayıb ki, Rusiya sülhməramlı qüvvələrinin dislokasiya olunduqları Azərbaycan ərazilərindən Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə çıxarılmasına son qoymalı idi.

Ötən bir il göstərdi ki, Ermənistan öz qalıq silahlı qüvvələrini nəinki tam olaraq ərazilərdən çıxarmadı, əksinə şəxsi heyətini Rusiya sülhməramlı qüvvələrinin gözləri önündə Azərbaycan ərazilərinə daşıdı. Kəlbəcər və Laçın rayonlarının bəzi hüdudlarında yeni erməni postları yerləşdirildi. Bu onu göstərir ki, Rusiya sülhməramlı kontingenti öz missiyasını yerinə yetirməkdə maraqlı deyil. Rusiya sülhməramlılarının müvəqqəti dislokasiya-nəzarət arealı imkan verir ki, erməni silahlı qüvvələri bu ərzilərdə sərbəst hərəkət etsinlər.

Möhtərəm Prezidentimizin, Ali Baş Komandanımızın qeyd etdiyi kimi, "Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!", deyə Nüşabə Məmmədova bildirib.

***İnam Hacıyev***

# Hazıra nazir olmağın kökündə nələr dayanır? - ARAŞDIRMA

*Son zamanlar əksər analar qızlarını "Ay qızım oxu, öz ayaqların üstündə dur, kişi lazım deyil" ifadəsi ilə böyüdür. Həmçinin, "ər çörəyi" deyilən bir məsələ də var. Bu ideologiya, əsasən, bölgələrimizdə müşahidə olunur. Belə ki, burada qızların bir çoxu məktəbi bitirən kimi ərə getmək istəyir. Özü özü üçün heç nə etmək isdəmir. Deyir "ər işləsin məni saxlasın". Bəs, sizcə, ər çörəyi sevən qadınlar haqlıdırlar? Ümumiyyətlə, bu yanaşma nə dərəcədə düzgündür? Bu tip qadınlar uğurlu kişinin yanında əskik qalmırlar? Yəni, hazıra nazir olmağın kökündə nələr durur?*

Qadınlar təbiətcə həssas xüsusi varlıqlardır. Onları bu qədər həssas və xüsusi edən bir çox xüsusiyyətləri var. Ancaq cəmiyyətimizi və bir çox cəmiyyətləri nəzərə alsaq, qadınlara kifayət qədər önəm verilmədiyi müşahidə olunur. Ancaq cəmiyyətin varlığının təməlini yenə analıq keyfiyyəti ilə qadınlar üzərinə götürür.

Qadın torpaq kimidir. Sən ək, işlə, zəhmət çək və o sənə çiçək versin. Önəmli olan bu torpaqdan yaxşı istifadə etmək, onun dəyərini bilmək və israf etməməkdir. İnkişaf etmiş ölkələrin sosial həyatına nəzər saldıqda qadınların həm sözdə, həm də qanunda kişilərlə eyni hüquqlara malik olduğu müşahidə edilmişdir. Yəni qadın hüquqları kağız üzərində müqavilə kimi qalmadı. Qadının ən böyük haqqı odur ki, qadın balaca qız ikən təhsil alıb bir peşə sahibi olmalıdır. Qadınların iqtisadi azadlığa malik olması onların yalnız pul qazanması demək deyil. Qadının iqtisadi azadlığı onu hər mənada bir addım öndə və daha güclü edir. İqtisadi azadlığı olan qadın ərinə möhtac deyil, əri də ona iqtisadi təzyiq göstərə bilməz, buna maliyyə zorakılığı deyilir.

Yenə də bədbəxt bir evlilik varsa, sadəcə, çarəsizlikdən bu evliliyi davam etdirmək məcburiyyətində deyil. Çünki qopduğu yerdən davam etmək gücünə malikdir. İqtisadi azadlığı əlində olan qadın cəmiyyət tərəfindən digər qadınlardan qat-qat yüksək qiymətləndirilir və hörmət edilir. İqtisadi azadlıq qadınlar üçün çətin günlərin xilaskarı olmaqla yanaşı, həm də həyat keyfiyyətini yaxşılaşdıran bir vəziyyətdir. Məsələn, işləyən qadının malik olduğu şey ərinə ehtiyacı olan qadının malik olmadığı ilə bərabər deyil. Hətta işləyən qadın uşaqlarının ömürlük imkanları da bura daxildir. Bundan əlavə, iqtisadi azadlığını ələ keçirmiş qadınların övladlarının digər qadınlara nisbətən xeyli aktiv və ünsiyyətcil olduğu, özlərinə inam probleminin olmadığı müşahidə olunub.

Nəticə etibarı ilə qadınların iqtisadi azadlığı onların həyatına təqdim edilən ən böyük nemətdir. Əslində, böyütdükləri övladları nəinki onların yanında qalır, həm də bu nemətdən öz paylarını alırlar. Cəmiyyətin qanayan yarası olan qadına qarşı zorakılıq qadınların iqtisadi azadlığını müəyyən qədər məhdudlaşdırır. Bu səbəbdən ailələrin ən böyük vəzifəsi nəyin bahasına olursa-olsun qız övladlarını savadlı, peşə sahibi etməkdir. Bu, həm cəmiyyətə gətirdikləri fərd, həm də övladlarına qoyduqları ən böyük miras olacaq.

Məşhur türk yazıçı Səma Maraşlı, mövzu ilə bağlı bir açıqlamasında bunları qeyd edib: "Əvvəlki nəslin qadınlarının çoxu ev işləri ilə məşğul olmağı qadınlıq hesab edirdi. Onlar qadın olmaq üçün ev təmizləmək, yemək bişirmək, paltar yumaq, ütüləmək və s. anlayışlarla böyüyüblər. Bunlar təbii ki, lazımsız işlər deyil, qadın olmağın bir parçasıdır, amma qadın olmaq bu deyil.



Əvvəlki nəslin qadınları bütün bunları etdikləri halda niyə ərlərinin gözündə bir nömrə olmadıqlarını anlaya bilmirdilər və özlərini lazımınca qiymətləndirilməyən bir xəzinə kimi gördüklərinə görə, onların çoxu həyatlarını ərlərinə qəzəblə keçiriblər. Əgər onlar özləri çalışıb pul qazansaydılar, ərlərini tərifləməzdilər və kədərlənməzdilər. Çöldə işləməyin çətinliklərini bilmədiklərindən həmişə daha yaxşı olacağını düşünürdülər. Onlar özlərini övladları uğrunda əzab çəkən məzlum, incidilmiş qadınlar kimi görürdülər.

Ərin də əzab çəkdiyini, içində qadın tapmamağın kədərini, məyusluğunu və bəzən qəzəbinin partladığını başa düşmürdülər. Kişinin anasının gördükləri ev işlərini gördüyünü, kişinin bu səbəbdən evlənə bilməyəcəyini, kişinin qadından fərqli gözləntiləri olduğunu düşünə bilməzdilər. Onlar özlərini mükəmməl qadın hesab edirdilər və belə qadınlara qiymət verilmədiyi üçün qızlarını onlar kimi bö-



yütməməyə qərar verdilər.

Onlar qızlarını özləri kimi böyütmədilər. Qızlarına iş tapşırmadılar. Oxuduqları müddətdə analar ətraflarında divanə oldular. Hətta öz əlləri ilə meyvə doğrayıb qabıqlarını da soyub uşaqlarına yedizdirdilər. Onların çoxu ev işlərindən də başa düşmürlər. Qız və oğlan uşaqlarını yetişdirərkən fərq qoymamağı öyrəndilər. Bu səbəbdən də indiki qızlar qadın olmaq təhsilli və karyera sahibi olmaq və kişidən asılı olamamaq kimi anlayır.

Bu tip qadınlar ərləri ilə mədəni danışıb xoşbəxtlik əldə etmək istəyirlər. Amma bu, mümkün deyil, çünki savadlı və işləyən qadınlar bilmədən ərləri ilə yarışır, hakimiyyət davasına girirlər".

SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq, sosioloq və şəhər sakinlərinin fikirlərini öyrənib.





**Sosioloq Əhməd Qəşəmoğlu:** "Bu dəqiqə bizim cəmiyyətin ən böyük problemlərindən biri odur ki, biz qəbul etmək istəmirik ki, indiki cəmiyyət 30 il öncəki cəmiyyət deyil. İndi cəmiyyət olduqca mürəkkəbləşib, məzmunu dəyişib, insanlar xeyli həssaslaşıb.

Əvvəlki cəmiyyət müəyyən qədər qapalı idi. Əvvəllər dünyadan o qədər də məlumatlı deyildik. Öz cəmiyyətimiz və ona məxsus xüsusiyyətlərimiz var idi. O vaxtkı ailələrlə indiki ailələr tamamilə fərqlidir.

Əsas məsələ isə necə edək ki, indi də bizim gözəl bir ailəmiz olsun? Ailənin əsas funksiyalarını müəyyənləşdirmək lazımdır. Ailənin konkret olaraq qarşısında duran vəzifələr var.

"Ər çörəyi" sözü 30-40 il öncə çox gözəl səslənirdi. Ailənin qorunmasında, bütövlənməsində, ailə qarşısındakı məsuliyyətdə çox gözəl ifadə idi. İndi isə bu söz 30 il öncəki ilə eyni anlamı daşımır. İndi cəmiyyət dəyişib. Təkcə gözünü ər çörəyinə dikmək ailədə mühüm rol oynamır. Çünkü ailələrin çoxunun xarakteri də dəyişib. Burada artıq yeni cəmiyyət, yeni münasibətlər və yeni məsuliyyət bölgüsü var. Ona görə də "ər çörəyi" sözünü tənqid etməməliyik".

**Psixoloq Vüsalə Əmiraslanova:** "Bu ideologiya ilə təkcə bölgələrdə yox, həmçinin şəhərdə yaşayıb düşünən də xeyli insan var. Bu, əslində, ailənin öz daxili qaydalarına bağlı bir şeydir. Məsələn, valideynlər hansı düşüncədə olurlarsa, övladlara da o düşüncələr keçir. Yəni, öz fikirlərini övladlarına ötürürlər.

Məsələn, bizim ailələrdə həmişə belə tərbiyə olunub ki, oğlan işləməli, ailəyə qulluq etməli, oğlan valideynlərinin yanında qalmalı və qız isə köçüb getməlidir. Yəni, qız müddətli ailədə qalır. Ona görə də ailələrin əksəriyyəti düşünür ki, qız



köçüb gedir və onun üzərində çox əmək sərf etməyək, təhsili ilə maraqlanmayaq və s. Buna görə də qıza tam ailənin üzvü kimi yanaşmırlar. Əgər ailə düşünsə ki, qız ailə qura da bilər, qurmaya da bilər, yoldaşı ilə ayrıla da bilər, yoldaşı rəhmətə də gedə bilər və s. mütləq qızına ilk növbədə savad verər.

Bəzən isə təhsili də cehiz üçün verirlər. Diplomu qoyurlar cehizin üzərinə və qızlarını köçürürlər. Bu, çox yanlış düşüncədir. Amma əsas məsələ, öncə əziyyət çəkib sonra rahatlığa çıxmaqdır. Yaxşı təhsil almış, dünya görmüş kişilər "ər çörəyi" arzusunda olan xanımlarla çox çətin yola gedir. Buna görə də ailələr dağılır. Uğurlu bir kişi üçün yanında uğurlu xanımın olması lazımdır. Amma çox təəssüflər olsun ki, bəzi ailələr də uğurlu qadını qəbul edə bilmir. Düşünürlər ki, o, ailəni idarə edə bilməyəcək və evdar deyil. Bu, yenə də baxış bucağından asılıdır. Hər bir insan özünə uyğun insanla ailə qurmalıdır ki, onların ailələri möhkəm olsun. Düşünürəm ki, insanın özünün də əli çörəyə çatmalıdır, qadın özü də qazanmalıdır ki, gələcəkdə ailəsi və uşaqları əziyyət çəkməsin".

Ardı Səh. 11

# Hazıra nazir olmağın kökündə nələr dayanır? - ARAŞDIRMA



**Əvvəli-Səh-10**

SİA araşdırma barəsində şəhər sakinlərinin də fikirlərini öyrənib:





**Şəhər sakini Ləman İdrissoy:** ”Fikrimcə, ”ər çörəyi” bir çox gənc üçün müstəqil həyata atılmağın ən asan yoludur. Fikir vermisinizsə hər kəs pulu, maşını, evi olan kürəkən, ər axtarır. Qızlarımız əziyyət çəkmədən hər şeyin hazırını əldə etmək istəyirlər. Bunun da səbəbi həmin insanların yetişdirildikləri ailələrdə əksərən qadınların evdar olması, evdəki ən çox və bəzən yeganə qazanc sahibinin isə kişilərin olmasıdır. İndiki dövrdə istər rayon, istərsə də şəhərdə qız uşaqları elə tərbiyə olunur ki, ər onlar üçün çıxış yolu kimi göstərilir. Məsələn, qız bir paltarı geymək istəyir və valideyn buna etirazını, bəzən ”indi atan qoymaz, ərə get ərin qoyar geyərsən” və bu kimi başqa cümlələrlə bildirirlər. Gətirdiyim misal təkcə geyim mövzusunda deyil, bir çox mövzuda aktualdır. Bir digər səbəb isə təhsilin qızlar üçün ailələrdə az təmsil olunmasıdır. Günümüzdə bir çox valideynlər qız övladlarının təhsil alması üçün heç bir maddi, yaxud mənəvi dəstək göstərmirlər. Səbəb kimi isə qızın ailə quracağını və həyat yoldaşının qazancının yetəcəyini, yaxud da ailə qurduqdan sonra əldə etdiyi gəlirin onlara bir aidiyyatı olmadığını göstərirlər. İsənilən halda istər qızlarımız, istərsə də oğlanlarımız təhsil almalı və öz ayaqları üzərində durmağı bacarana kimi ailə həyatı qurmamalıdırlar. Xüsusilə, qız uşaqlarına zamanında ər yerinə kitablar təbliğ olunsa, o zaman həm cəmiyyət, həm də ölkə inkişaf etmiş olar”.



**Şəhər sakini Aytac Əliyeva:** ”Mən düşünürəm ki, bu, əslində, çox aktual və mühim mövzudur. Keçmiş zamana nisbətən bu cür düşüncə tərzinə sahib insanlar nisbətən azalsa da, hələ də bəzi bölgələrdə, eləcə də şəhərlərdə bu düşüncəyə sahib insanlar kifayət qədər var. Mənim fikrimcə, bu düşüncə tərzi qızların şəxsi düşüncə tərzi deyil, ümumiyyətlə, insanın düşüncə tərzinin formalaşmasında ailənin rolu çox böyükdür. Ailə və ətraf mühit qızların düşüncə tərzinə çox təsir edir. Bu cür mühitlərdə insanların manipulyasiyalarına məruz qalaraq böyüyən qızların düşüncələrinin bu tərzdə olması, əslində, çox da təsadüfi deyil. Mənim düşüncəmə qalsa, bu, çox yanlış düşüncədir və hər bir insan olduğu mühitdən asılı olmayaraq öz düşüncələrini özü formalaşdırmağı bacarmalıdır. Texnologiya və internet dövründə yaşayırıq, xarici ölkələrində texnologiya cəhətdən bu qədər inkişaf olduğu halda hələ də bəzi bölgələrdə bu cür düşüncələrin olmasın, qızların öz gələcəklərini və təhsillərini düşünməməsi, həqiqətən də, çox üzücü nüansdır. Hər bir xanım öncə təhsil almalı, aldığı təhsillə və ya təhsildən asılı olmayaraq hər hansı bir sahəyə yönəlməli və öz ayaqları üzərində durmağı bacarmalıdır. Müəyyən zaman içində ailə həyatı quran xanım özünə həyat yoldaşı tapır, özünü kiməsə ”saxlatdırmaq” məqsədi ilə qurulan ailələrdə doğulan uşağların şəxsi və psixoloji inkişafında hər zaman problemlər olur. Bu düşüncə tərzinə sahib xanımlar təkcə uğurlu kişi yox, hər insanın yanında əskik qalır”.



**Şəhər sakini Gülnar Əliyeva:** ”Məktəbi bitirən kimi ailə quran qızların taleyini ailə cızır. Yəni, ailə bunu edir. Uşaq yaşlarından qızların başına bu fikirlər ötürülür. Qızlara az yaşından etibarən cehiz yığmaq əvəzinə, ona oxumağın, təhsilin, heç kimə möhtac olmamağın önəmini anlatmaq lazımdır. Bütün qadınlar işləməli və əllərində sənətləri olmalıdır. Amma bu, o demək deyil ki, evdə qadın da işləyirsə, o, hökmranlıq edərək ərini əzsin. Bu, düzgün deyil. Sadəcə, fərd olaraq həm qadının, həm də kişinin çalışıb işləməsi daha yaxşıdır. Heç kim sabahından qarantilənməyib. Qadınlar işləməli, təhsil almalıdır. Ər çörəyi yox, əl-ələ verib çörək yemək lazımdır”.





**Şəhər sakini Ülkər Xəlilli:** ”Ər çörəyi? Mənim fikrimcə, bu cür düşünən insanların həyatda başqa məşğuliyyətləri, fəaliyyətləri olmadığı üçün elə düşünürlər. Məqsədləri olmalıdır. Ali təhsilə önəm verməlidirlər məncə. Versələr belə olmaz, həm də ailədən də çox şey asılıdır. Ailə məncə yönəltməlidir övladlarını, qızlarını ali təhsilə. Düzgün yanaşma tərzi deyil. Kiməsə möhtac olmamalıdırlar”.

***Ayşən Vəli***

## “Ermənistanda ksenofobiya, rasizm siyasətin adi normaları kimi qəbul olunur”



“Ermənistan parlamentində siyasi partiya rəhbəri olan Zarui Postancanyanın səsləndirdiyi bəyanat bu ölkədə Azərbaycanafobiya və rasizmin nə qədər dərin kök saldığını bir daha nümayiş etdirir. Ermənistanın siyasi elitasında təmsil olunan siyasətçilərin əksəriyyəti məhz bu faşist düşüncənin daşıyıcılarıdır”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ramin Məmmədov deyib.

Deputat Zarui Postancanyanın ixtisasca hüquqşünas olduğunu, vaxtilə hüquq müdafiəçisi kimi də fəaliyyət göstərdiyini, hətta Ermənistan parlamentini Avropa Şurası Parlament Assambleyasında təmsil etdiyini də xatırladıb: ”Öz ölkəsini AŞPA kimi nüfuzlu bir beynəlxalq təşkilatda təmsil etmiş şəxsin bu qədər rasist düşüncəyə malik olması ümumilikdə Ermənistan cəmiyyətində türklərə və azərbaycanlılara qarşı dözümsüzlüyün təzahürüdür. Şübhəsiz ki, Vətən müharibəsində Azərbaycanın qazandığı qələbənin yaratdığı ağır psixoloji durumun mövcudluğunu inkar etmək olmaz. Lakin tarixə nəzər saldıqda, xüsusilə də birinci Qarabağ müharibəsində ermənilərin törətdiyi vəhşiliklər, ikinci Qarabağ müharibəsi zamanı dinc sakinlərə edilən amansız hücumlar yalnız ayrı-ayrı şəxslərin deyil, bütöv bir cəmiyyətin xəstəliyə düçar olduğundan xəbər verir”.

Milli Məclisin deputatı qeyd edib ki, Ermənistan cəmiyyəti uydurulan və uzun illər onlara təlqin olunan yalançı tarixin ölkəni yeni fəlakətlərə aparacağını anlamalıdır: ”Bir siyasətçinin parlamentin tribunasından başqa xalqları təhqir etməsi nə özünə, nə ölkəsinə başucalığı gətirmir. Bu gün işğaldan azad olunmuş ərazilərdə 30 il ərzində törədilmiş dağıntılara, məscidlərə, dini abidələrə, mədəniyyət obyektlərinə qarşı münasibətin yaratdığı reallıqlara baxanda kimin kim olduğunu anlamaq o qədər də çətin deyil. Üçtərəfli bəyanatın imzalanmasından sonra rayonların boşaldılması zamanı erməni hərbçiləri və mülki şəxslərinin etdikləri əməlləri, evlərin yandırılması, meşələrin, yaşıllıqların məhv edilməsini xarici kütləvi informasiya vasitələri bütün dünyaya göstərmişdi. 30 il məhz azərbaycanlıların evlərində qanunsuz məskunlaşmış qonşularımızın bu evləri tərk edərkən özləri ilə hansı əşyaları götürdüklərini bütün dünya gördü”.

Ramin Məmmədov qeyd edib ki, bu gün Ermənistanın monoetnik dövlət olması əslində bu ölkədə ictimai düşüncəni yönləndirən ideologiyanın mahoyyəti barədə çox söz deyir: ”1988-ci ildə yüzminlərlə həmvətənimiz Ermənistandan deportasiya olundu. Daha əvvəlki dövrlərdə də belə dopertasiyalar olmuşdu. 1992-ci ildə Xocalıda məhz milli mənsubiyyətinə görə körpə uşaqları, qadınları qətlə yetirən bir ölkənin siyasətçisindən başqa bir yanaşma gözləmək olmazdı. Ermənistanda ksenofobiya, rasizm, təcavüzkarlıq, dini, etnik dözümsüzlük siyasətin adi normaları kimi qəbul olunur və təəssüf ki, bu yanaşma cəmiyyətə də sirayət edib”.

***Aysel Məmmədova***

*Noyabrın 26-da YAP Xətai rayon təşkilatı Xudu Məmmədov küçəsi 3 və Xudu Məmmədov küçəsi 3/1 ünvanlarında yerləşən ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarını keçirib. Hesabat məruzələri dinlənilib, çıxışlar əsasında ərazi partiya təşkilatlarının hesabat dövründəki fəaliyyətləri qiymətləndirilib.*

# Yeni Azərbaycan Partiyasına xidmət etmək dövlətə, xalqa xidmət etmək deməkdir

## Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqları davam edir





Yığıncaqlarda çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə bildirib ki, ötən illərin reallıqları ölkəmizin qarşıya qoyduğu hədəflərə doğru inamla irəlilədiyini təsdiqləyir: "Prezident İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası uğurla həyata keçirilir. Bu baxımdan son illər islahatlar konsepsiyasının reallaşması, bu addımların ölkə həyatına gətirdiyi yeniliklər diqqətdədir. Uğurlarımızın memarı, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi siyasət, bütün istiqamətlərdə görülən kompleks tədbirlər ötən il 44 günlük Vətən müharibəsində torpaqlarımızın azad edilməsi, tariximizə Zəfər Gününün yazılması ilə nəticələndi. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev həm də dövlətimiz və xalqımız üçün olduqca mühüm tarixi vəzifəni şərəflə yerinə yetirdi, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Lider kimi tariximizin ən qüdrətli sərkərdəsi oldu."

"Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin müəyyən etdiyi siyasət sistemli, ardıcıl və məqsədyönlüdür: "Ən əsası bu siyasət hər addımda dövlətə və xalqa xidmət missiyasına söykənir. Vətəndaş məmnunluğunun artırılması dövlət siyasətinin əsasında dayanır. Bu isə öz növbəsində xalq-iqtidar birliyini daha sarsılmaz edir. Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində bu birliyi, həmrəyliyi bir daha dünyaya nümayiş etdirdi. Tarixi Zəfərimizdən sonra Azərbaycanın həyatında başlanan yeni mərhələnin hədəfləri qarşıdakı dövrdə ölkəmizə, xalqımıza Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yeni zəfərlər və uğurlar vəd edir."

Vüqar Rəhimzadə vurğulayıb ki, ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyası hədəflərini zamanın, dövrün tələblərinə uyğun müəyyənləşdirsə də bütün hallarda atılan addımların, qəbul olunan qərarların, irəli sürülən təşəbbüslərin əsasında "Güclü dövlət, yüksək rifah" prinsipi dayanır: "YAP yarandığı gündən dövlətə, xalqa xidməti fəaliyyətinin əsas prinsipi kimi qəbul edərək bunu əməli fəaliyyətində təsdiqləyir. Ulu öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyasına xidmət etmək dövlətə, xalqa xidmət etmək deməkdir" tezisi bütün dövrlərdə aktuallığını qoruyur, partiyanın fəaliyyətinə bələdçilik edir."

Sonra hesabat seçki-yığıncaqlarında təşkilati məsələlərə baxılıb. Taryel Şıxbalayev Xudu Məmmədov küçəsi 3 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Səltənət Əhmədova sədr müavini, Raminə Abdullayeva Xudu Məmmədov küçəsi 3/1 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Şəhla Lətifova isə sədr müavini seçiliblər. YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə yeni tərkiblərə fəaliyyətlərində uğurlar arzulayıb.

# Azadlıq prospekti 179 ünvanlı ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirilib



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Azadlıq prospekti 179 ünvanlı ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirilib. Hesabat-seçki yığıncağını giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov yığıncaq iştirakçılarını salamlayıb. Partiyanın VII Qurultayından bəhs edən Vüsar İsmayılov yeni Nizamnamə və proqramın qəbul edilməsindən, eləcə də struktur dəyişikliklərindən danışıb. Bu islahatların partiyanın gələcək inkişafına əsaslı zəmin yaratdığını bildirib. Çıxışının davamında rayon təşkilatı tərəfindən görülən işlər və qarşıda duran vəzifələr haqqında məlumat verib. Ərazi ilk partiya təşkilatının daha da sistemli və keyfiyyətli fəaliyyət göstərməsi istiqamətində müvafiq tapşırıq və tövsiyələrini verib.

Ərazi ilk partiya təşkilatının sədri Yunis Hüseynov gündəlikdə duran məsələlər barədə məlumat verib. Bildirib ki, hesabat-seçki yığıncağının gündəliyində, əsasən, iki məsələ - ərazi ilk partiya təşkilatının sədrinin partiyanın VI Qurultayından ötən müddət ərzində fəaliyyətinə dair hesabat məruzəsinin dinlənilməsi, sədr və sədr müavininin seçilməsi məsələləri müzakirə olunacaq. Sədr daha sonra geniş hesabat məruzəsi ilə çıxış edərək, ərazi ilk partiya təşkilatının fəaliyyəti və gördüyü işlər haqqında danışıb.Yığıncaqda çıxış edən ərazi partiya təşkilatının üzvü, Binəqədi rayon icra hakimiyyətinin başçısı Elxan Allahverdiyev ölkəmizdə dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu və məqsədyönlü islahat-



lardan danışıb. Azərbaycanın bütün sahələrdə müvəffəqiyyətlərə imza atdığını və bu uğurların bundan sonra da davamlı olacağına əminliyini ifadə edib. Ərazi ilk partiya təşkilatının işinə uğurlar arzulayıb.

Hesabat məruzəsi ətrafında çıxış edən ərazi ilk partiya təşkilatının üzvləri Amal Əsgərov, Ziba Nəcəfova təşkilatın fəaliyyətini qənaətbəxş hesab edib. Hesabat məruzəsi səsə qoyularaq, qəbul edilib. Yığıncağın sonunda təşkilati məsələlərə baxılıb, partiya üzvlərinin yekdil qərarı ilə Yunis Hüseynov yenidən ərazi ilk partiya təşkilatının sədri, Ziba Nəcəfova isə sədr müavini seçilib. Onlar çıxışlarında göstərilən etimadı yüksək qiymətləndirdiklərini və bu etimadı hər zaman doğruldacaqlarını bildiriblər.

***ZÜMRÜD BAYRAMOVA***

# Siyəzəndə ədliyyə işçilərinin peşə bayramı qeyd olunub





Ümummilli Lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr- Ədliyyə İşçilərinin Peşə Bayramı Günü Siyəzən rayonunda da böyük ruh yüksəkliyi ilə qeyd olunub. Tədbirdə Siyəzən rayon məhkəməsinin sədri Bəylər Ələkbərov, İcra və Probasiya şöbəsinin rəisi Elnur Piriyev, Dövlət Notariusu Kamran Muradov, həmçinin fəxri qonaq kimi Siyəzən rayon prokuroru Ramil Əliyev, digər dövlət orqanlarının əməkdaşları, o cümlədən rayonun fəalları Cavanşir Kazımov və veteran ədliyyə mayoru İlqar Quliyev iştirak etmişlər. Tədbirdən öncə Siyəzən rayon icra hakimiyyətinin qarşısında ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilmiş, önünə gül dəstələri düzmüşlər.

Daha sonra ağacəkmə aksiyası keçirilmişdir. Tədbir Siyəzən rayon məhkəməsinin inzibati binasında xüsusi karantin rejiminin tələbləri nəzərə alınmaqla keçirilib. Çıxışlardan öncə Ümummilli Liderimiz Heydər Əliyevin və Qarabağ şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan rayon məhkəməsinin sədri peşə bayramı münasibətilə kollektivi təbrik edib və ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər ordumuzun Vətən müharibəsində 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edilməsindən danışmışdır.

Siyəzən rayon prokuroru Ramil Əliyev də çıxışında bütün ədliyyə işçilərini təbrik edərək ədliyyə işçisi olmağın qürurverici oduğunu vurğulamışdır. İcra və Probasiya şöbəsinin rəisi Elnur Piriyev çıxışında bütün tədbir iştirakçılarını təbrik etmiş, ikinci Qarabağ müharibəsində əldə olunan möhtəşəm zəfərlə bağlı bu il peşə bayramının daha ruh yüksəkliyi ilə qeyd edildiyini bildirmişdir. Vətən müharibəsində döyüşlərdə mərdlik və şücaət nümayiş etdirərək şəhidlik zirvəsinə yüksəlmiş nazirliyin əməkdaşı, I dərəcəli ədliyyə qulluqçusu Ruhin Xəlilov barəsində məlumat verərək , onun ailəsinə dövlət tərəfindən qayğı göstərildiyini, onun həyat yoldaşının ədliyyə orqanlarına işə qəbul olunduğunu və bu diqqət və qayğının Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədovun ədliyyə işçilərinə olan qayğısının nəticəsi olduğunu bildirmişdir.

Daha sonra veteran ədliyyə mayoru İlqar Quliyev Ədliyyə nazirliyinin tarixindən, keçdiyi şərəfli yoldan bəhs etmişdir. Tədbirdə rayon fəalları, ədliyyə könüllüləri, vəkillər çıxış edərək öz təbriklərini və ürək sözlərini çatdırmışlar.



# "Ermənistan rəhbərliyi cəmiyyətin qəzəbini boğmaq üçün Moskvanın xəyanətindən danışır"

**Rusiya hökuməti yanında Maliyyə Universitetinin Sosial Elmlər və Kütləvi Kommunikasiyalar fakültəsinin dekanı Aleksandr Şatilov "Caliber" analitik mərkəzinə müsahibəsində maraqlı məqamlara toxunub Müsahibəni təqdim edirik.**

*- Aleksandr Borisoviç, noyabrın 26-da Soçidə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında üçtərəfli danışıqlar başlayır. Bu görüşdən sonra bir irəliləyiş gözləmək lazımdırmı?*

- Mənə elə gəlir ki, bu danışıqlarda yekun həll demək olar ki, mümkün deyil. Fakt budur ki, Ermənistanın hazırkı rəhbərliyi çox ağır siyasi və sosial-iqtisadi vəziyyətdədir, ona görə də "Dağlıq Qarabağ"ın "təslim edilməsi" onun üçün intihara bərabərdir.

Üstəlik, 2020-ci il məğlubiyyətlərinin şokundan bir qədər çıxmış Paşinyanın komandası aparıcı geosiyasi oyunçuların (Rusiya, ABŞ, Fransa) ziddiyyətləri üzərində kifayət qədər məharətlə oynayır.

Eyni zamanda, erməni elitası ona ümid edir ki, nə Rusiya, nə də Qərb Qarabağ məsələsinin qəti həllində maraqlı olmamalıdır, çünki bu, Türkiyənin Cənubi Qafqazda mövqeyini xeyli gücləndirəcək.

*- Ermənistan Zəngəzur dəhlizinin açılmasına niyə mane olur?*

- Mənə elə gəlir ki, erməni tərəfi Zəngəzur dəhlizi problemini Laçın dəhlizi problemi ilə əlaqələndirməyə çalışır. Və istisna deyil ki, məhz bu məsələdə Bakı ilə İrəvan arasında müəyyən qarşılıqlı güzəştlərin olması mümkündür.

*- Ermənistan Türkiyə ilə münasibətləri normallaşdırmaq üçün vasitəçi kimi Rusiyaya ümid edir. Bu, Moskvanın maraqlarına nə dərəcədə uyğundur?*

- Rusiya ənənəvi olaraq (1990-cı illərin əvvəllərindən) Ermənistan tərəfdən Qarabağ məsələsinin kuratoru hesab olunur. Ona görə də İrəvanın vasitəçi kimi Moskvaya üz tutması tamamilə təbiidir. Baxmayaraq ki, təbii ki, Rusiya Federasiyası üçün belə bir rol müəyyən başağrısıdır, çünki o, həm Ermənistan, həm də Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır.

Bundan əlavə, Qarabağ problem onun Türkiyə ilə Suriya məsələsində ilə qarşılıqlı əlaqəsini çətinləşdirir. Bundan başqa, Rusiya Paşinyan komandasından heç bir xüsusi minnətdarlıq almır, üstəlik, çox vaxt Ermənistan rəhbərliyi erməni cəmiyyətinin qəzəbini özündən yayındırmaq üçün Moskvanın xəyanətindən danışır.

*- İrəvandakı anti-Rusiya isteriyasını nəzərdə tutursunuz?*

- O cümlədən. Fikrimcə, Ermənistanda və daha geniş mənada, erməni cəmiyyətində (Rusiya Federasiyası daxilindəki diaspora da daxil olmaqla) anti-Rusiya əhval-ruhiyyəsi Qərbin təsir agentləri (məsələn, Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyan) tərəfindən fəal şəkildə qızışdırılır. Eyni zamanda, onları indiki İrəvan administrasiyasının dövlət xadimləri də səsləndirir, onlar üçün oxları Moskvaya çevirmək daha asandır. Ermənistan cəmiyyətində isə çoxları buna inanır ki, bu da Rusiya Federasiyası rəhbərliyinin Ermənistan rəhbərliyi ilə qarşılıqlı fəaliyyətində əlavə çətinliklər yaradır.

***Tərcümə - Elçin Bayramlı***



KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

# "Paşinyan təhlükəli oyun oynayır və sərsəm bəyanatlar verir"

***"Əlbəttə ki, Paşinyanın verdiyi açıqlamalar, bəyanatlar, sayıqlamalar təbiidir, çünki bu Ermənistanın siyasi, hərbi rəhbərlərinin bir xarakteridir, onların adətidir. Bu rəhbərlər uzun illərdir tam sərbəst, müstəqil siyasət yürüdə bilməyiblər və öz ağılları ilə, öz dərrakələri ilə rəhbər işləməyiblər və ona görə də başqalarının fikirlərini ifadə ediblər, bu fikirlər də daimi olaraq dolaşıq, təzadlı olub, yalana, böhtana, riyaya söykənib." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.***





Komitə sədri vurğulayıb ki, Paşinyanın verdiyi bəyanatlar da bu qəbildəndir, çünki, üçtərəfli bəyanatda açıq-aydın ifadə olunur ki, komunikasiya xətləri açılmalıdır, maneəsiz hərəkət təmin edilməlidir.

"Komunikasiyaların açılması əlbəttə ki, nəqliyyat sisteminə, teleqraf, indormasiya kimi digər sistemlərə də aiddir və Paşinyan ola bilsin ki, bu terminləri yaxşı anlamır, yaxşı başa düşmür. Əslində, yaxşı başa düşür, ancaq o öz havadarlarından tapşırıqlar aldığına görə belə sərsəm bəyanatlar verir. Çünki, o dəhlizin açılmasında Fransa maraqlı deyil, Ermənistanı dəstəkləyən ölkələr maraqlı deyillər və sözsüz ki, Paşinyan da bu dövlətlərin təsirində olan, onların tapşırıqlarını yerinə yetirən, çətin gündə onlara arxalanan, onları özlərinə bir arxa hesab edən rəhbər kimi, noyabrın 26-da görüşə gedir və bu görüşdən əvvəl belə sərsəm bəyanatlar verir. Ancaq bu qəbul edilən deyil, çünki 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatda maddələr əks olunub və bu maddələrin yerinə yetirilməsi, Zəngəzur dəhlizinin açılmasını reallığa çevirir və bunu məcburi bir fakt kimi qarşıya qoyur.

Əlbəttə, çox haqlı olaraq səsləndirilir ki, əgər biz Laçın dəhlizindən Azərbaycanda yaşayan ermənilərə, erməni icmasına müəyyən imkan, şərait yaradırıqsa, bizim Naxçıvanda çoxsaylı vətəndaşlarımız dəhlizdən məhrum olunmuş halda niyə yaşamalıdırlar? Onlar üçün niyə Zəngəzurdan dəhliz olmasın? Niyə onlarla biz əlaqə saxlamayaq? Belə çıxır ki, Qarabağda 25 minə yaxın erməni yaşayır ki, onlar tam Ermənistanla sərbəst əlaqə saxlaya bilərlər, ancaq Naxçıvanda 100 minlərlə Azərbaycan vətəndaşı, bizim vətəndaşlarımız var və onlara yol, dəhliz verilməməlidir? Bu heç cür nə beynəlxalq normalara sığmır, nə də qəbul olunan bəyanatlara uyğun gəlmir.

Sözsüz ki, bu təxribatçı bəyanatların arxasında yenə də deyirəm, xarici təsirlər, xarici qüvvələr var, xarici qüvvələrin burada niyyətləri var. Çünki, onlar Ermənistanın başıboş rəhbərlərinin saygısızlığından, süslüyündən, onların rəhbərə, dövlət başçısına yaraşmayan hərəkətlərindən, tərzlərindən istifadə edərək Ermənistanı əldə oynatmaq fikrindədirlər. Biz bu gün bir dövlət olaraq sülhün tərəfdarıyıq və cənab Prezident də öz çıxışlarında dəfələrlə xatırladıb ki, qalib olmağımıza baxmayaraq biz əməkdaşlığın, sülh şəraitində olan qonşuluğun tərəfindəyik və münaqişə aradan qaldırılıb, istəyirik ki, bu xalqlar xoşbəxt qonşuluq şəraitində yaşasınlar. Bunun da şərtləri var. Müəyyən qaydada dövlətimizin başçısı güzəştlər edir, müəyyən qaydada beynəlxalq təşkilatların o prinsiplərini, beynəlxalq normaları əldə rəhbər tutaraq, öz sülhsevərliyini, humanistliyini ortaya qoyur və istəyir ki, danışıqlar yolu ilə, sülh yolu ilə problemlər aradan qaldırılsın. Ancaq ölkəmizin başçısı bildirib ki, üçtərəfli bəyanatdan irəli gələn tələblər, müddəalar yerinə yetirilməsə əlavə tədbirlər görmək məcburiyyəti yaranır.

Şübhəsiz ki, silahlı qruplaşmalar tezliklə Azərbaycandan çıxmalıdır, Zəngəzur dəhlizinin açılması reallaşdırılmalıdır, Ermənistan sülh müqaviləsinə qol çəkməlidir, sərhədlər tam dəqiqləşdirilməlidir və bundan sonra Ermənistanla qarşılıqlı əlaqələr qurula bilər. Bu həm də Ermənistanın, erməni xalqının xeyrinədir. Ancaq Paşinyan, yenə də deyirəm oyun oynayır, özü də çox təhlükəli bir oyun oynayır, öz yalançı havadarlarının kələyinə uyub fitnəkar bəyanatlar verir, yalan ifadələr səsləndirir.

Noyabrın 26-da Soçidə dövlət rəhbərlərinin görüşü gözlənilir. Sözsüz ki, burada məsələlər tam həllini tapmalıdır və şərtlər var ki, o şərtlərin tez bir zamanda yerinə yetirilməsi barədə qərar qəbul olunmalıdır. Əks təqdirdə Azərbaycan Prezidentinin dediyi kimi, dəmir yumruq yerindədir, Azərbaycan Ordusu öz yerindədir, Azərbaycan xalqının istəyi, məqsədi aydındır. Azərbaycan sərhədləri tam dəqiqləşdirilməli və Azərbaycanda yaşayan erməni icmasının üzvləri Azərbaycan vətəndaşlığını qəbul edib Azərbaycanın qanunları ilə yaşamalıdırlar. Hər bir silahlı şəxs Azərbaycandan xaric olunmalı, Azərbaycan ərazisini tərk etməlidir. Mən elə bilirəm ki, ölkəmizin başçısının qətiyyəti, inamlı çıxışları, tutduğu mövqe sülhün, əmin-amanlığın təmin olunmasına real imkan yaradır", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***



# Mütrübün ağıllanması fəna görünür

İLHAM

**Mövcud faktlar və reallıqlar ondan ibarətdir ki, hər bir xalqın sivil, demokratik xalq olması onun teatrlara münasibəti, şənlik və toy ənənələrinə bağlılığı, dəyərlərinə dərin hörmət bəsləməsi ilə ölçülür. Qürurverici hal ondan ibarətdir ki, 5 min illik dövlətçilik tarixinə malik Azərbaycan xalqı özünün zəngin adət-ənənələrini, mədəniyyətini qoruyub saxlaya bilib. Hətta monqol-tatarların hücumları, Rusiya imperiyasının işğalı zamanı da xalqımız adət -ənənəsini yaşadıb.**

20-ci əsrin əvvəllərində Avropanın bəzi dövlətlərində, eləcə də Risiyanın "Böyük teatr"ında tamaşaları səhnələşdirəndə artıq 1873-cü ilin martın 14-də Mirzə Fətəli Axundovun "Lənkəran xanın vəziri" və "Hacı Qara" tamaşaları Bakıda səhnəyə qoyulmuşdur. Sonrakı mərhələdə Üzeyir Hacıbəyli "Leyli və Məcnun", "Rüstəm və Zöhrə", "Şah Abbas və Xurşudbanu", "Harun və Leyla" və digər operalarını yaradıb. Bir sözlə, Azərbaycan xalqının dünya sivilizasiyasına verdiyi töhfələr əvəzsizdir. Xalqımız əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlamış və nəsildən-nəsilə ötürmüşdür. Təəssüf ki, xalqımızın tarixən formalaşan yüksək mənəvi dəyərlərə malik adət-ənənələrinə müxtəlif əlavələr etməyə çalışanlar var. Ən diqqətçəkən biabırçı hal ondan ibarətdir ki, musiqimizə qarşı daha çox kənar əlavələrin edilməsinə cəhdlər göstərilir. Həm də, araşdırmalar aparıldıqda məlum olur ki, musiqimizə sərsəm cizgilər əlavələr edənlər heç bir musiqi təhsili olmayan şou əhlinin mütrübləridir. Hansı ki, bu mütrüblər musiqi səhnəsinə bazar kimi baxır və çalışır ki, bu bazarda daha çox sponsor qazanmaqla pullar əldə etsinlər. Düzdür, bazarda mütrüblərin toruna düşən şirkət sahibi, biznesmen əhli və məmurlar olur. Nəticədə, mütrüblər müxtəlif markalı bahalı xarici avtomobillərə, dəm-dəstgahlı evlərə sahib olurlar. Arada bir mütrüblər xarici cahi-cəlallı istirahət mərkəzlərinə də baş vururlar. İnanın, Pərvin Abiyeva adlı bir mütrüb-aktirisa Maldiv adalarından gözqamaşdırıcı fotolar paylaşdıqdan sonra bildim ki, belə adda ərazi vahidi var. Televiziya ekranlarından Aygünün, Röyanın, Nadirin, Mətanətin, Manafın və digərlərinin mənzillərini və bağ evlərini seyr etdikdə "Amazon" kompaniyasının rəhbəri Ceff Bezosun, "Tesla" və "Space X" şirkətlərinin təsisçisi İlon Maskın, "Microsoft" şirkətinin sahibi Bill Qeytsin və "Facebook"un qurucusu Mark Zukerberqin halına acıyıram. O mənada ki, bu varlı şirkət sahibi olan məxluqlar heç Azərbaycanın şou əhlinin mütrübləri kimi malikanə, villa, müxtəlif markalı bahalı avtomobil sahibi deyillər. Həm də varlı "mujik"lər açıq şəkildə yaşayışlarını nümayiş etdirmir və metrodan, avtobusdan istifadə edən insanlara lağ etmirlər. Fikir versəniz görərsiniz ki, şou əhlinin nümayəndələri ictimai nəqliyyatdan istifadə edənlərə dodaq büzür, onları qınayırlar. Bu yaxınlarda şou əhlinin diribaş nümayəndələrindən olan Manaf adlı birisi tv-lərdən birində belə deyir: "Adama gülərlər, deyərlər ki, sən nə gündəsən, metrodan istifadə edirsən, heç olmasa, taksidən istifadə et". Bu diribaş məxluq anlamır ki, metroya minmək, avtobusdan istifadə etmək qəbahət deyil. Qüsur odur ki, toy məclisində bir onluq qazanmaq üçün qızarıb turp rənginə dönənə qədər qışqırasan, əl öpüb, mənasız təriflər söyləyəsən. Qısası, mütrüblərin düzəlməsi, cəmiyyət maraqlarına və adət-ənənələrinə uyğun fəaliyyət yolu tutmaları mümkünsüz görünür. Çünki onlar üçün ali varlıq və məqsəd pul qazanmaqdır. Dini kitablarımızda deyildiyi kimi, vay belələrinin halına.

# Makron dindarları təhqir etdiyinə görə cavab verməli olacaq

***Emmanuel Makron Papa ilə görüşmək üçün yalvarmalı oldu. G20 dövlət və hökumət başçılarının son Roma görüşü zamanı Fransa diplomatiyası Papa Fransisklə görüşə nail olmaq üçün səfərbər edildi. Amma Makronun xahişi bir dövlət başçısının yox, sanki katolik kilsəsində çalışan adi qulluqçusu istəyi kimi bir tərəfə atıldı.***



Görüşün Yelisey sarayında hazırlanan ssenari üzrə baş tutacağı ehtimalı isə azdır. Əgər baş tutarsa sualları yalnız Papa Fransisk verəcək, Makron isə onlara cavab verməli olacaq. Aydındır ki, kilsəni ziyarət edənlərin sayının getdikcə azaldığı, kilsələrinin yoxsulluq içində yaşadığı, kilsələrin yanğın və fəlakətlərə qarşı sığorta olunmadığı bir ölkənin rəhbərinin Papa ilə görüşdə çətin duruma düşməsi gözlənilləndir.

İkinci amil, hələ də ibadət edənlərə, dini inanclılara qarşı nifrətin tüğyan etdiyi Fransanın rəhbəri kimi bütün bu çatışmazlıqların öhdəsindən gəlmək də asan deyil. Kilsədə qeyri-münasib davranışlara imkan yaradan Makronun peyğəmbərlərin karikaturaları, müxtəlif təsvirlərinin təhqiramiz formada təqdim edənləri dəstəkləməsi (Fransa qanunlarına görə), bunu azad sözün təzahürü sayması da onun başının ağrıyacağına dəlalət edir. Fransa bu gün dini ayrı-seçkilik və ksenofobiya ilə qaynayır.

Katolikliyin hökm sürdüyü Beşinci Respublikanın bütün tarixi kilsə və kilsə iyerarxlarının ictimai həyata təsirinin daimi, lakin tədricən azalması diqqət çəkən məqamlar hesab olunur. Baxmayaraq ki, Şarl de Qolldan başlayaraq ölkənin bütün prezidentləri təkcə katolik təhsili almayıblar, həm də özləri dindar idilər. Gəncliyində Makron Lourdesə həcc ziyarətinə getsə də, sonradan hər şey unuduldu. Özündən yaşca iki dəfə böyük olan qadınla evliliyi onun həyatını 180 dərəcədə dəyişdi.

Fransanın bir millət və bir dövlət kimi bütün tarixi boyunca Katolik Kilsəsi əsas strukturlardan biri rolunu oynayıb və həm keşişləri, həm də dindarları ictimai müzakirələrdə aktiv iştirak ediblər, cəmiyyətin əsas parçası olublar. Amma Notr Dam Katedralinin yanğını bütün dünyanın, eyni zamanda dini konfessiyaların diqqətini Fransa cəmiyyətinə yönəltdi. Bu da səbəbsiz deyildi, bu hadisəni adi yanğın hesab etmək olmaz. Bu, qiymətsiz xəzinələrin və məşhur kilsənin palıd ağacından olan örtüyünün yanması ilə yanaşı, inancın, həm millətin, həm də ölkənin əsas simvollarından birinin itirilməsi idi.

Bu abidələr milli abidələrin reyestrinə daxil edildiyindən və bununla bağlı ruhanilər və kilsə xadimləri üçün sığorta ödənişləri astronomik xarakter daşıdığından, qəza və bədbəxt hadisələr zamanı dövlət mümkün təmir və bərpa xərclərini ödəyəcəyini vəd etmişdir. Amma təxmini hesablamaya görə, 1 milyard avroya yaxın məbləğ xəzinədə olmadığından Fransanın əsas simvolunu bərpa etmək üçün dairəyə "papaq qoymaq" lazım gəldi.

Həm millətin, həm ölkənin, həm də təbii ki, bütün Fransız Katolik Kilsəsinin bu cür alçaldılması ilə nə müqayisə oluna bilər?

**V.VƏLİYEV**

# "Nəyisə dəyişmək, demək olar ki, çox çətindir"





"Paşinyan Zəngəzur adının uydurma olduğunu söyləməzdən əvvəl, 20-ci əsrin əvvəllərinə aid xəritələrə diqqət yetirsin. Orada Azərbaycan-Ermnistan arasında inzibati xəritələr mövcuddur. Yaxud Azərbaycan Demokratik Respublikası dövründəki sərhədlərə diqqət yetirsin. Bu xəritədə Azərbaycan-Ermənistan sərhədləri dəqiq sürətdə göstərilib. Bizdən torpaqların alınıb ermənilərə pay verilməsi 20-ci əsrin əvvələrindən başlayaraq, 1984-cü ilə kimi davam edib. Bu dövrlərin hamısı nəzərdən keçirilməlidir ki, inzibati və ya müstəqilliyini elan etmiş Azərbaycanla Ermənistan arasındakı sərhədlər nədən ibarət olduğu aydın olsun". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

O, qeyd edib ki, təbii ki, yalnız xəritələr yox, tarixi sənədlər də hər şeyi açıq-aydın göstərir. ADR dövründə Azərbaycan ilə Naxçıvan arasında hansısa erməni torpağı olmayıb. Yəni Zəngəzur ADR-in tərkibində olub. Azərbaycanda sosialist inqilabı olanda, bolşeviklər hakimiyyətə gələndə də Zəngəzur Azərbaycana məxsus olub. Zəngəzur 1923-cü ildə Moskvanın təzyiqi ilə Azərbaycandan alınıb, Ermənistana verilib. Adını da qoyublar proletar beynəlmiləlçiliyi. Çox təəssüf ki, o zamankı siyasi rəhbərlərdən yalnız Nəriman Nərimanov bu işə qarşı ciddi mövqe sərgiləyirdi. Onu da Moskvaya yüksək vəzifə vermək adı ilə aparıb, sonradan zəhərlədilər. Yəni biz bütün dövrlərdə, hətta Rusiya tarixində ən mütərəqqi quruluş sayıla biləcək sosializm dövründə də Rusiyanın çömçəni həmişə Ermənistan tərəfə buladığının şahidi oluruq. Mən Paşinyanı kifayət qədər savadlı, oxumuş, Azərbaycan-Ermənistan münasibətlərinə bələd olan bir şəxs kimi tanımıram. O jurnalistdir. Özü də jurnalistikanın qiyabi şöbəsini qurtarıb.

Qabil Hüseynli bu barədə fikrini belə izah edib: "Ən azından onun ətrafında olan adamların hamısı erməni xüsusiyyətlərinə xas olaraq subyektiv fikirlər yaymağa çalışırlar. Həmçinin, Azərbaycan torpaqlarının sovet dövründə Ermənistana qatılması reallığına müqavimət göstərməyə çalışırlar. Üstəlik belə bir faktın üstündən onlar sükutla keçirlər ki, buralar əvvəllər İrəvan xanlığının torpağı olub və əhalinin 93 faizi azərbaycanlı olub. Yəni üzərində öz dövlətlərini qurduqları torpaqlar da onların özünə məxsus deyil. Bu gün o reallıqları təftiş etmək, o barədə dünya ictimai fikrində nəyisə dəyişmək, demək olar ki, çox çətindir. Bəzən isə qeyri-mümkündür. Çünki dünya ictimai rəyini xristian qərb dünyası formalaşdırır. Onlar da bu kiçik xrstiyan dövlətinə öz dəstəklərini heç vaxt əsirgəməyiblər. Bir sözlə, Paşinyanin ağzından çıxan söz hansısa müqəddəs kitabın ayələri deyil ki. Bir daha təkrar edirəm ki, Paşinyan ilk növbədə ermənidir. Biz də erməni xislətinin, dünya görüşünün necə olduğunu, məsələlərə necə münasibət bəslədiyini çox yaxşı bilirik. Öz tarixin saxtalaşdırıb, qədimləşdirmək kimi yaramaz xüsusiyyətlər ermənilərin ideya arsenalında, ideya cəbhəsində həmişə əsas yer tutub".

**Turqay Musayev**

# Alternativ enerji: Potensial və perspektivlər

ARAŞDIRMA

***Alternativ enerji mənbələrindən istifadəni artırmaq məsələsi bəşəriyyətin qarşısında qlobal bir problem kimi dayanır. Belə ki, dünyada neft-qaz kimi ənənəvi enerji mənbələri tükənmək üzrədir. Buna görə də hazırda bütün inkişaf etmiş dövlətlər bu iki enerji mənbəyindən asılılığı azaltmaq və hətta onlardan imtina etmək istiqamətində fəaliyyətlərini gücləndiriblər.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

## Alternativ enerji potensialı kifayət qədərdirmi?

Neft və qaz ehtiyatlarının dünya miqyasında azalması qeyri-ənənəvi enerji mənbələrindən istifadəni qaçılmaz və zəruri edir. Praktiki olaraq tükənməyən təmiz enerji mənbələrinə ehtiyac getdikcə daha çox hisi olunur. Alternativ enerji mənbələrinə aşağıdakılar aiddir.

**1). Külək enerjisi;**
**2). Günəş enerjisi;**
**3). Qabarma-çəkilmə;**
**4). Çayların enerjisi;**
**5). Geotermal;**
**6). Bioyanacaq;**

Konkret həcmə malik bərpa olunmayan ehtiyatlar limiti olan Yer planetinin təbii resursları amansızcasına və sürətlə istismar olunur. Hesablamalara görə, əsrin sonlarına doğru neft-qaz və kömür yataqları tükənməyə başlayacaq. O zamanadək alternativ enerjiyə keçilməsə, bəşəriyyəti ağır günlər gözləyir.

Ənənəvi enerji növlərinin ekologiyaya da ciddi zərər vurması əlavə problemlər yaradır. Alternativ və bərpa olunan enerji isə üstün cəhətləri tükənməzlik və bərpaolunma xüsusiyyəti, həmçinin ekoloji baxımdan təmizliyidir.

Qeyd edək ki, 1992-ci ilin iyununda 150 ölkə İqlim dəyişmələrinə qarşı tədbirləri nəzərdə tutan BMT-nin Çərçivə Konvensiyasını imzalayıblar. 1997-ci ilin dekabr ayında bu Konvensiyaya əlavə daha bir beynəlxalq sənəd- Kioto Protokolu qəbul edilib. İndiyədək bu sənəd 190-a yaxın ölkə tərəfindən ratifikasiya olunub.

Azərbaycan 1992-ci ilin iyun ayında Çərçivə Konvensiyasına qoşulub, 1995-ci ildə isə onu ratifikasiya edərək Konvensiyanın tərəfdaşı olub. 1997-ci ilin aprelində ölkə prezidentinin sərəncamı ilə iqlim dəyişmələri üzrə Dövlət komissiyası yaradılıb. Ölkəmiz 2000-ci ildə Kioto Protokoluna qoşulub. Azərbaycanın irihəcmli neft-qaz ehtiyatları olsa da, hesablamalara görə, yeni yataqlar kəşf olunmazsa, uzağı 2050-60-cı illədək bu ehtiyatlar tükənəcək. Bu isə ölkənin alternativ enerji mənbələrinə keçid hazırlıqlarını sürətləndirməsini zəruri edir.

## Külək enerjisi hansı perspektiv vəd edir?

Hesab edilir ki, ilk külək mühərrikləri hələ 2 min il qabaq Çində, Yaponiyada və Tibetdə quraşdırılıb. Bizim eramızdan əvvəlki dövrlərdə külək mühərrikləri Misirdə, Yaxın Şərqdə, o cümlədən, Azərbaycanda da mövcud olub.

Dünyada ilk 100 kVt gücndə külək elektrik stansiyası keçmiş Sovet İttifaqında (Krımda) istismar olunub. İndi müxtəlif gücdə və fərqli konstruksiyalarda olan külək mühərrikləri dünyanın bir çox yerlərində və hətta daim küləkli dəniz və okeanlarda da quraşdırılaraq istismar olunur.

Təcrübə göstərir ki, Azərbaycanın bir çox rayonlarında külək enerjisi qurğularının tətbiqinin böyük perspektivi var. Hesablamalara görə, Azərbaycan 800 MVt-a yaxın illik külək enerjisi ehtiyatına malikdir. Bu ehtiyat ildə təxmini hesablamalara görə, 2,4 milyard kVt/saat elektrik enerjisi deməkdir.

Bu isə öz növbəsində ildə 1 milyon tona yaxın şərti yanacağa qənaət, ən əsası isə ildə küllü miqdarda tullantıların, o cümlədən ozondağıdıcı olan karbon dioksidin atmosferə atılmasının qarşısının alınması deməkdir. Üstəlik, öz maya dəyərinə görə, külək enerjisi digər alternativ enerji mənbələri ilə müqayisədə daha ucuz başa gəlir.

Çoxillik müşahidələr nəticəsində müəyyən edilib ki, ən əlverişli külək şəraiti Abşeron yarımadasında, Xəzər dənizi sahili zolağında və akvatoriyanın şimal-qərb hissəsində olan adalardadır. Azərbaycanın qərbində Gəncə-Daşkəsən zonasında və Şərur-Culfa ərazisində küləyin orta illik sürəti 3-5 m/san. olduğu üçün bu regionlarda orta güclü külək elektrik qurğularından istifadə etmək olar. Son dövrlərdə bəzi ərazilərdə Abşeronda və Qobustanda külək enerjisi qurğuları quraşdırılıb. Bu işi genişləndirmək üçün hər cür imkanlar var.

## Günəşli respublikanın günəş enerjisi potensialı

Hələ 1600-cu ildə Fransada suyun ötürülməsi üçün istifadə edilən və qızdırılmış hava ilə işləyən ilk günəş mühərriki yaradılmışdı. XVII əsrin axırında görkəmli fransız kimyagəri A. Lavuazye ilk günəş sobasını yaratdı. Bu sobada 1650°C hərarət almaq mümkün idi.

Sonrakı dövrlərdə bu sahədə zəif də olsa irəliləyiş baş verdi və indi dünyada nəhəng həcmli günəş batareyalarının qurulduğu stansiyalar var. Artıq bir çox ölkələrdə, günəş enerjisi ilə işləyən təyyarələr, gəmilər, avtomobillər, ev əşyaları var, müxtəlif qurğular və binalar bu enerji ilə təmin olunur. Günəş enerjisinin istifadəsinin üstünlüyü ondadır ki, günəş qurğuları işləyən zaman parnik effekti yaranmır, havanın çirklənməsi baş vermir, istilik aşağı atmosfer qatlarına yayılmır.

Günəş enerjisinin yalnız bir çatışmazlığı var- o da atmosferin vəziyyətindən, günün və ilin vaxtından asılılıqdır. Azərbaycanda günəşli saatların miqdarı il ərzində 2400-3200 saatdır. Ölkəmizdə günəşli günlərin sayı 300-dən çoxdur. Günəş enerjisindən istifadənin inkişafı Azərbaycanın bir çox rayonlarında enerji problemini qismən həll edə bilər. Dünyada qurulmuş Günəş fotoelektrik sistemlərinin ümumi gücü 900 MVt-dan çoxdur. Bunlardan 80 MVt- Yaponiya, 60 MVt- ABŞ, 50 MVt- Almaniya dövlətlərinin payına düşür.

## Su elektrik stansiyaları ekoloji təmiz texnologiyadır

Azərbaycanın ümumi enerji sistemində su elektrik stansiyalarının istehsal gücünün xüsusi çəkisi hazırda 17,8 faiz təşkil edir. Ölkədə indiyə qədər istifadə edilməmiş hidroenergetika ehtiyatlarının mənimsənilməsi üçün geniş imkanlar var. Bu istiqamətdə aparılmış tədqiqat işləri nəticəsində Azərbaycandakı çayların tam hidroenerji potensialının 40 mlrd. kVt.s, texniki cəhətdən əlverişli potensialının isə 16 mlrd. kVt.s olduğu müəyyən edilib ki, bunun da 5 mlrd kVt.s kiçik su elektrik stansiyalarının payına düşür.

Su elektrik stansiyalarının tikintisi- sel sularının tənzimlənməsi, ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsalı və yeni suvarma sistemlərinin yaradılması kimi önəmli məsələlərin həllində mühüm rol oynayır. Azərbaycanda çaylar üzərində və su təsərrüfatı obyektlərində onlarla kiçik su elektrik stansiyaları yerləşdirmək olar ki, onların da istehsal etdiyi elektrik enerjisi ildə 3,2 mlrd kVts təşkil edə bilər.

Hökumət yaxın perspektivdə 50-dən artıq kiçik SES-in tikintisini məqsədəuyğun hesab edir. Bu SES-lər irriqasiya kanalları üzərində, axını tənzimlənməmiş çaylarda və tikiləcək su anbarlarının yanında yerləşdirilə bilər. Xüsusən də düşmən işğalından azad edilmiş Qarabağ bölgəsində bunun üçün böyük potensial var. Ölkədə həmçinin vahid enerji sisteminin elektrik xətlərindən və yarımstansiyalarından uzaqda yerləşən obyektlərin, yaşayış məntəqələrinin elektrik enerjisi ilə təchizində mikro SES-lərdən də istifadə olunması elektrik enerjisi problemləri ilə yanaşı, digər sosial məsələlərin də həllinə imkan yarada bilər.



*Qeyri-ənənəvi enerji mənbələri ekoloji sağlamlığı təmin etməklə yanaşı, daha səmərəli və ən əsası tükənməzdir*

## Geotermal və biokütlə enerjisi potensialı

Yer təkinin istiliyi bir çox ölkələrdə sənaye, kənd təsərrüfatı, məişət və kommunal sahələrdə və təbabətdə geniş istifadə olunur. Həmin ölkələr içərisində İslandiya hələlik 1-ci yerdədir. Enerji istehsalında və istehlakında geotermal enerji mənbələrindən istifadənin üstünlüyü ondan ibarətdir ki, onların tətbiqi iri həcmli maliyyə vəsaiti tələb etmir.

Azərbaycanın ərazisi termal sularla zəngindir. Termal suları istifadəyə cəlb etməklə məişətdə və digər sahələrdə istilik enerjisinə olan ehtiyacın bir hissəsini ödəmək mümkündür. Azərbaycanda sənaye, kənd təsərrüfatı və sosial xidmət sahələrinin sürətli inkişafı biokütlədən istifadə etməklə enerji istehsalı üçün yeni imkanlar açır. Ölkədə biomaddələrin aşağıdakı mənbələri mövcuddur:

- yanma qabiliyyəti olan sənaye tullantıları;
- meşə təsərrüfatı və ağac emalı sahələrinin tullantıları;
- kənd təsərrüfatı məhsulları və üzvi birləşmə tullantıları;
- məişət və kommunal sahələrinin tullantıları;
- neft və neft məhsulları ilə çirklənmiş sahələrdən alınan tullantılar.

Aparılmış tədqiqatlar göstərir ki, iqtisadiyyatın bütün sahələrində istehsal tullantılarının tərkibinin çox hissəsini biokütlə maddələri təşkil edir. Həmin biokütlə maddələrindən elektrik enerjisinin istehsalında istifadə olunan bioqaz, biomaye və bərk biokütlənin alınması mümkündür. Azərbaycanda hər il tullantıların zərərsizləşdirilməsi poliqonlarına 2 milyon tondan çox bərk məişət və istehsalat tullantıları atılır. Bakıdakı Məişət Tullantılarının Emalı Zavodu bu istiqamətdə çox böyük addımdır. Digər şəhərlərdə də belə zavodların tikilməsi vacibdir.

Bioqaz qurğularından kənd təsərrüfatında və ya böyük heyvandarlıq fermalarında istifadə səmərəlidir. Bu qurğularda peyindən istifadə edərək bioqaz və gübrə istehsal olunur. Biyoyanacaq istehsalı, bu qurğuların sınağı və təkmilləşdirilməsi sahəsində dunyada və eləcə də ölkəmizdə elmi-praktiki işlər görülür.

## Azərbaycan post-petrol erasına indidən hazırlaşır

Qeyd edək ki, hazırda elektrik enerjisi resursları ölkənin tələbatından təxminən 1000 meqavat çoxdur. Yaxınlarda istifadəyə veriləcək yeni stansiyaların fəaliyyəti nəticəsində bu rəqəmin daha da artacağını gözlənilir. Azərbaycan prezidenti buna baxmayaraq, alternatin enerji istehsalını inkişaf etdirməyin vacibliyini vurğulayır.

"Biz bundan sonra mütləq alternativ enerji mənbələrinin yaranmasına çalışmalıyıq. İlk növbədə, kiçik çaylarda mini su elektrik stansiyaları tikilməlidir... Bizdə həm külək kifayət qədərdir, həm də günəş. Belə gözəl təbii imkanlardan biz səmərəli şəkildə istifadə etməliyik- bir neçə il əvvəl dövlət başçısı hökumətin müşavirəsində bildirib.

Xatırladaq ki, 2010-cu il iyulun 16-da ölkə prezidenti Energetika Nazirliyi yanında Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılması haqda fərman imzalayıb. Fərmana görə, agentliyin yaradılmasında məqsəd Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrini istismara cəlb etməklə ölkənin enerji resurslarından istifadənin səmərəliliyini yüksəltməkdir.

Beləliklə, hazırda nəhəng perspektiv və mövcud neft-qaz yataqlarına malik Azərbaycan buna arxayınlaşmayıb alternativ enerji ilə bağlı iri layihələr həyata keçirməlidir. Bununla yanaşı bu sahdə kadrlar yetişdirməli və elmi araşdırmaları dəstəkləməliyik. Azərbaycan enerji ölkəsidir, bu torpağın altı da, üstü də enerji mənbəyidir. Hər halda, tükənən yeraltı enerjilərimizin əvəzinə tükənməz yerüstü enerji ehtiyatlarımızdan yararlansaq daha doğru olar. Çünki, bu, daha təhlükəsiz, daha sağlam və əbədi enerjidir...

***Elçin Bayramlı***

# "Qalatasaray"dan fransızlara futbol dərsi!



***Futbol üzrə UEFA Avropa Liqasının qrup mərhələsinin V turuna yekun vurulub. Türkiyə təmsilçilərindən "Qalatasaray" Fransanın "Marsel" klubunu qəbul edib. Görüş meydan sahiblərinin inamlı qələbəsi ilə yekunlaşıb - 4:2.***

Hesabı 12-ci dəqiqədə "sarı-qırmızılar"ın rumıniyalı legioneri Aleksandru Çikıldeu açıb. Qarşılaşmanın 30-cu dəqiqəsində Due Çaleta-Tsar topu öz qapısına vurub. Oyunun 64-cü dəqiqəsində Sofyan Fequli fərqi 3 topa çatdırıb.

Görüşün 68-ci dəqiqəsində "Marsel" penalti vurmaq hüququ qazanıb. Arkadiuş Milikin 11 metrlik cərimə zərbəsini qapıçı Fernando Muslera qaytarsa da, polşalı hücumçu təkrar zərbə ilə fərqi azaldıb. Lakin 83-cü dəqiqədə Rayan Babel "Qalatasaray"ın aktivinə 4-cü qolu yazdırıb. Oyunda son nöqtəni isə 85-ci dəqiqədə yenidən Milik qoyub.

E qrupunun digər matçında İtaliyanın "Latsio" klubu səfərdə Rusiyanın "Lokomotiv" komandasından üstün olub - 3:0.

C qrupunda Azərbaycan millisinin futbolçusu Mahir Emrelinin çıxış etdiyi Polşanın "Legiya" klubu İngiltərədə "Lester Siti"nin qonağı olub. Görüş meydan sahiblərin 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Matçın 26-cı dəqiqəsində Mahir Emreli penalti zərbəsini dəqiq yerinə yetirə bilməyib.

Bu qrupun ötən gün baş tutmuş digər matçında İtaliyanın "Napoli" komandası Rusiyada "Spartak" klubuna uduzub - 2:1.

"Fənərbağça" Yunanıstanda "Olimpiakos" ilə üz-üzə gəlib. Həmin görüş yunanların minimal hesabla qələbəsi ilə yekunlaşıb - 1:0. Görüşün başa çatmasına bir dəqiqə qalmış "Olimpiakos"un futbolçusu Tikinio Soares komandasının qələbə topun vurub. Beləliklə, İstanbul təmsilçisi növbəti mərhələyə çıxmaq şansını itirib.

D qrupun digər görüşündə Almaniyanın "Ayntraxt" klubu Belçikanın "Antverpen" komandasını sınağa çəkib. Növbəti mərhələyə vəsiqəni vaxtından əvvəl rəsmiləşdirən Frankfurt təmsilçisi bu oyunda heç-heçə edib - 2:2.

# Böyrək daşı xəstəliyindən 45% qoruyan UCUZ MEYVƏ

***Amerika Nefroloqlar Cəmiyyəti mütəxəssislərinin fikrinə görə, adi alma böyrəklər üçün "meqa-faydalı" məhsuldur. Alimlərin müşahidələrinə görə, tez-tez alma yeyən insanlarda böyrək daşı xəstəliyinə bu meyvəni xoşlamayan və nadir hallarda yeyən insanlarla müqayisədə 45% daha az rast gəlinir.***



Saglamolun.az xarici KİV-lərə istinadla bildirir ki, mütəxəssislərin fikrinə görə, bunun səbəbi almanın tərkibində çoxlu miqdarda olan pektindir. Pektinin bir çox faydalı xüsusiyyətləri var: qanda şəkər və xolesterinin səviyyəsini aşağı salır, bağırsağın sağlamlığını qoruyur, piylənmənin riskini azaldır. Mütəxəssislər hər gün 1-2 alma yeməyi tövsiyə edirlər.

# Məşhur sima iti ilə bacarmır



Məşhur türk sima İlayda Alişan keçən avqust ayında "Fransız Bulldog" itini övladlığa götürüb. SİA xarici mətbuata istinadən xəbər verir ki, Fred adlı it çox şirindir, lakin təlimə cavab vermir. Evdəki əşyaları dişləməyi sevən Fred evdə mebel də buraxmır. İlayda Alişan it təlimçisindən kömək alır və Fredi bu vərdişindən çəkindirməyə çalışır.

***Ayşən Vəli***

# B12 vitamini əsəb sistemini sağlam saxlayır




***Sağlam həyat tərzi üçün qida rasionuna müxtəlif vitamin və minerallar daxil etmək lazımdır. B12 vitamini orqanizmimizin yaxşı fəaliyyət göstərməsi üçün zəruri hesab edilən B qrupuna daxil olan 8 həyati vacib vitamindən biridir. B12 vitamini qırmızı qan hüceyrələrinin (eritrositlərin) yaranmasına kömək edir, həmçinin əsəb sisteminin sağlam fəaliyyət göstərməsində mühüm rol oynayır.***

Belə ki, B12 vitamini təbii halda bəzi ərzaqların tərkibində mövcuddur və yəqin ki, artıq siz onları qəbul edirsiniz. Bu vitaminin əmələ gəlməsi üçün ət, balıq, pendir və yumurta, o cümlədən heyvanın qaraciyəri və böyrəyi, molyusklar, siyənək, zənginləşdirilmiş dənli bitkilər, tunes, zənginləşdirilmiş qida mayası, alabalıq, qızılbalıq, süd və süd məhsulları yaxşı mənbə hesab olunur.

İnsanlar müxtəlif və balanslaşdırılmış pəhrizə riayət edərək onlara lazım olan B12 vitaminini tam əldə etmək imkanı qazana bilərlər. B12 vitamininin əlavələrini qəbul edənlərə bunu həddən artıq etmək məsləhət görülmür, çünki bu, zərərli ola bilər. 19-64 yaş arası olan insanlara hər gün təqribən 1,5 mikroqram B12 vitamini tələb olunur.

Vegetarianlar öz pəhrizlərindən lazım olan B12 miqdarını ala bilmir, çünki bu vitamin təbiətdə nə meyvənin, nə də tərəvəz və taxılın tərkibində mövcuddur.

# 1 manat 50 qəpiyə kirayə ev



İsveçin dünyaca məşhur mebel firmalarından biri maraqlı kampaniya ilə diqqət çəkib. Firma məhsullarını reklam etmək üçün Yaponiyanın paytaxtı Tokionun ən bahalı rayonlarından biri olan Şinjukuda 10 kvadratmetrlik mənzil icarəyə götürüb və onu öz məhsulları ilə təchiz edib.

Firma bu mənzili cəmi 99 yenə, yəni 1 manat 50 qəpiyə kirayə verir. Bildirilib ki, "Kiçik evlər" kampaniyasının məqsədi çoxməqsədli məhsulların dar məkanlarda belə rahat həyat təklif edə bildiyinə diqqət çəkməkdir.

Mənzilin birinci mərtəbəsində mətbəx, paltaryuyan maşın sahəsi, hamam və tualet yerləşir. Kirayəçi namizədlər dekabrın 3-dək müraciət edə bilərlər. Evi kirayə götürmək hüququ qazanacaq şəxs 2023-cü ilə qədər mənzildə yaşaya biləcək.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**